**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MUZEYŞÜNASLIQ KONTEKSTİNDƏ DƏYƏRLƏNDİRİLMƏSİ

İxtisas: 6220.01 Muzeyşünaslıq

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Yeganə Məhəmməd qızı Eyvazova**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasında yerinə yetirilmişdir.

Rəsmi opponentlər: Kulturologiya doktoru, professor
**Olqa Sergeyevna Sapanja**

Tarix elmləri doktoru, professor
**Yelena Aleksandrovna Polyakova**

Tarix elmləri doktoru
**Robert Valiyeviç Almeyev**

Tarix elmləri doktoru, dosent
**Darmanjan Turayevna Kuryazova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.35/1 Birdəfəlik dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq doktoru, professor
**Məryam Əli qızı Əli-zadə**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnarə Kərim qızı Hüseynova**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Nabi Olimoviç Xuşvakov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Humanitar elmi fənnlər sistemində özünü təsdiqləmiş nəzəri muzeyşünaslıq sistemli yanaşma metodu vasitəsilə mədəni və təbii, daşınar və daşınmaz, maddi və qeyri-maddi irsin qorunması, aktuallaşdırılması üzrə müasir problemlərin geniş əhatəsinin tədqiq edir. Muzeyşünaslıq - insanın gerçəkliyə münasibətinin xüsusi bir növünü öyrənən elmi fənn kimi formalaşaraq bu gerçəklliklərin dəyər potensialının üzə çıxarılması, təhlili və onların mühafizəsi problemləri ilə məşğul olur. Bu paradiqma tarix və mədəniyyət abidələrinin muzeyşünaslığın tədqiqat obyektinə çevrilməsinə səbəb olur. Çünki tarix və mədəniyyət abidəsi adi obyekt deyil, çoxaspektli dəyər potensialına malik sosial-mədəni kateqoriyadır. Zəngin tarixi-mədəni, texniki, sosial informasiya daşıyıcısı olan bu fenomenin muzeyşünaslığın tədqiqat obyekti olmasının digər mühüm səbəbi, məhz bu kateqoriyadan olan obyektlərin mühafizəsi zərurətidir. Muzeylərin yaranması və onların fəaliyyətinin nəzəri aspektdən təhlili sayəsində təşəkkül tapmış muzeyşünaslıq öz tədqiqat obyektini tədricən genişləndirərək mədəni irsin bütün tərəflərini əhatə etməyə başladı. Yəni muzeyşünaslıq yalnız muzeydəki sərvətlərin tədqiqi, qorunması problemlərinin öyrənilməsi streotipindən uzaqlaşaraq, gələcək üçün saxlanılması, qorunması zəruri hesab edilən muzeydənkənar mədəni irs obyektlərinin də tədqiqini öz üzərinə götürdü. Beləliklə, qloballaşma prosesinin prinsiplərinə uyğun şəkildə inkişaf etməyə başlayan muzeyşünaslığın tədqiqat obyektlərinin əhatə dairəsinə "tarix və mədəniyyət abidəsi" fenomeni də əlavə olundu.

Mədəni irsin xüsusi bir istiqamətini təşkil edən tarix və mədəniyyət abidəsi çoxaspektli, çoxməzmunlu xassəyə malik bir fenomen kimi bir çox elmlərin-fəlsəfə, tarixşünaslıq, kulturologiya, sosiologiya, sənətşünaslıq, hüquqşünaslıq, pedaqoqikanın tədqiqat obyekti olmuşdur. Bu fenomeni müxtəlif aspektlərdə öyrənən tədqiqatların elmi yekunları onun muzeyşünaslıq kontekstlərinin üzə çıxarılmasına əhəmiyyətli şəkildə kömək edir.

Tarixin inkişaf dinamikasında ilkin, etimoloji mahiyyətindən yeni məzmununa keçid almış "abidə" anlayışının hazırda tarixi və

hüquqi aspektlərini qabardan bir-neçə tərifi formalaşmışdır ki, bunlardan: keçmişdə baş vermiş hər hansı hadisəyə aidiyyatı olan, sosial-əhəmiyyətli informasiyanın ötürülməsi və aktuallaşdırılması aktı üçün işarə olması; cəmiyyət üçün xüsusi dəyər kəsb edən mədəni və təbii irs obyektlərinə verilən status kimi dərkidir. Xüsusilə də, sonuncusu tədqiqatımızın predmeti ilə üst-üstə düşür. Dissertasiyanın aktuallığını qabardan amillərdən biri "abidə" fenomeninin təkamül prosesi nəticəsində XX əsrin ortalarından başlayaraq "tarix və mədəniyyət abidəsi" ifadəsinə (statusuna!) transformasiyasının vektorlarının üzə çıxarılmasıdır. Bu vektorlara cəmiyyətdə abidənin məişət səviyyəsində dərkindən hüquqi status səviyyəsinə transformasiyasının xüsusiyyətləri aiddir.

Abidələrin elmi tədqiqata cəlb edilən əsas xassələrindən biri onun yaddaş, xatirə fenomeni ilə bağlılığıdır. Y.Assman, P.Nora, M.Halbvalks**,** A.V.Svyatislavski**,** Z.Freyd, Q.V.Lebedova [1]**"**yaddaş" fenomenini fizioloji deyil, "mədəni yaddaş", "kollektiv yaddaş", "sosial yaddaş", "yaddaş məkanları" paradiqması əsasında araşdırarkən abidələrin roluna xüsusi diqqət yetirmişlər. Bu tədqiqatlarda irəli sürülən konsepsiyalar hazırkı dissertasiyamızın obyekti olan "abidə" anlayışının genezisinin üzə çıxarılmasına metodoloji cəhətdən əhəmiyyətli təsir göstərmişdir. Belə ki, bu tədqiqatçıların elmi müddəalarını eyni məxrəcə sosial-mədəni aspektdən dərk olunan "yaddaş"ın maddi və hətta qeyri-maddi formaya köçürülməsi ilə sosial-genetik daşıyıcı qismində çıxış edən,

---

[1] Ассман, Я. Культурная память: Письмо, память о прошлом и политическая идентичность в высоких культурах древности / Пер.с нем. М. М. Сокольской. – Мрсква: Языки славянской культуры, –2004. - 368 с.
Нора, П..Франция-память. / Н.Пьер- СПб. Изд-во С.-Петерб.ун-та, –1999. – 239 с., Хальбвакс, М.. Коллективная и историческая память / Пер. с фр.: Мих. Габович.// Память о войне 60 лет спустя. Россия, Германия, Европа. Москва. Новое лит.обозрение, –2005.–с.16-50., Хальбвакс, М. Социальные рамки памяти / Пер. с фр. и вступ. ст.: С. Зенкин. Москва.: Новое издательство, – 2007.– 348 с**.,** Святославский, А.В.Среда обитания как среда памяти: к истории отечественной мемориальной культуры:/ автореферат дис. доктора культурологии./–Москва, –2011. –57 с., Фрейд, З. Психологические этюды/ З.Фрейд.–Минск: Поппури, –1991. –246 с., Лебедова, Г.В Память и забвение как феномены культуры: /дис. кандидата философских наук./–Екатеринбург, 2006.–168 с.

əbədiləşdirmə funksiyasını (memoriallaşdırma mədəniyyəti (memorystudies)) yerinə yetirən fenomenin-abidənin təşəkkülünə səbəb olması haqqındakı tezis gətirir. Bu tezis doğma dilimizdəki “abidə”nin, eyni zamanda digər dillərə “pamyatnik”, “monument”, “anıt” kimi tərcümə olunan anlayışların etimologiyasının “yaddaş” fenomeni ilə bağlılığını sübut edir. “Xatirə”, “yaddaş”ın əbədiləşdirilməsi məqsədilə yaradılmış xatirə tipli memarlıq tikililəri, heykəltaraşlıq əsərlərinin “abidə” adlandırılması ənənəsi də, məhz bununla bağlıdır! Lakin zaman keçdikcə “abidə” anlayışının yeni məna qatları əldə etməsi ilə təkamülü və nəticədə “tarix və mədəniyyət abidəsi” ifadəsinə transformasiyası baş verdi. Qarşıya qoyduğumuz problemin araşdırılması ilə bağlı bu tədqiqatçıların fəlsəfi, kulturoloji təhlillərində muzeyşünaslıq kontekstləri üçün zəmin tapmaq da mümkündür. Belə ki, “yaddaş”ın düşünülmüş şəkildə əbədiləşdirilməsi prosesi eyni zamanda tarixi, bədii-estetik, texnoloji, elmi cəhətdən əhəmiyyət kəsb edən informasiyanın ötürülmə aktı kimi də dərk olunur ki, sonradan bunun aktuallaşmasına (mühafizəsi, istifadəsi (revitalizasiyası, revalorizasiyası)) tələbat yaranır. Əhəmiyyətli informasiyanı özündə daşıması faktı (informativliyi) hadisə və obyektlərin mühafizəsinə əsaslı zəmin yaradır ki, bu da muzeyşünaslıq kontekstləri haqqında düşünməyə imkan verir.

A.B.Şuxobodski tədqiqatında müasir mədəniyyətin qorunması və gələcəyə ötürülməsində “tarix və mədəniyyət abidəsi” fenomeninin rolunu üzə çıxartmış və onun “status” səviyyəli fenomen olduğu ehtimalını elmi cəhətdən əsaslandırmışdır. O, tarix və mədəniyyət abidəsinin mədəni irs, mədəni dəyər sistemləri nisbətində təhlil edərək bu fenomenin əlahiddəliyini status səviyyəsində təqdim edir. Qeyd edək ki, tarix və mədəniyyət abidəsi fenomeninin, məhz bu aspekti hüquqşünaslığın da tədqiqat obyektinə çevrilmişdir. M.M Boquslavski, A.P.Sergeyeva, S.Q.Dolqov, L.N.Qalenskaya İ.E.Martınenko, L.R.Klebanov, A.K.Vahitov, E.V.Vaqanova, V.V.Qaponenko, L.D.Proxorovanın fundamental elmi əsərləri ilə yanaşı, M.V.Vasilyeva, İ.V.Savelyeva, L.V.Pavlova

S.N.Molçanovun[2], elmi məqalələrində tarix və mədəniyyət abidələri hüquq müstəvisindən araşdırılır. Bu tədqiqatların elmi qənaətlərini vahid məxrəcə gətirən amil "tarix və mədəniyyət abidəsi" fenomeninin mədəni irs vahidi kimi dərki ilə bağlıdır.

"Mədəni irs" anlayışının elmi dövriyyəyə daxil edilməsi ilə tarixi-mədəni obyektlərin bütün kateqoriyalarına yeni paradiqmadan yanaşılması əhəmiyyət kəsb etdi. Bu proses mədəni irs obyektinin "abidə" kimi konstruksiyalaşması ilə nəticələndi. Həmin tədqiqatların irəli sürdükləri fikirlərlə razılaşmadığımız məqamlar da mövcuddur. Bu tədqiqatların əksəriyyətinin yalnız maddi və daşınmaz obyektlərin "tarix və mədəniyyət abidəsi" statusuna transformasiyası haqqındakı tezisləri müdafiəyə təqdim etdiyimiz müddəalarla üst-üstə düşmür. Çünki biz tarix və mədəniyyət abidəsi

---

[2] Богуславский, М.М. Культурные ценности в международном обороте: правовые аспекты/М.М.Богуслввский. – Москва: Юристъ, – 2005.– 427 с. Сергеев, А.Р. Гражданско-правовая охрана культурных ценностей в СССР/А.П.Сергеев. –Ленинград: Изд-во ЛГУ, – 1990.– 190 с., Долгов, С.Г. Культурные ценности как объекты гражданских прав и их защита (гражданско-правовой и криминалистический аспекты): /автореферат дис. кандидата юридических наук./ – Москва,– 2000.– 26 с., Галенская, Л.Н. Музы и право. Правовые вопросы международного сотрудничества в области кльтуры /Л.Н.Галенская. – Ленинград: Изд-во Ленинградского университета, – 1987.– 220 с., Мартыненко, И.Е. Правовой статус, охрана и восстановление историко-культурного наследия (монография) / И.Э. Мартыненко. – Гродно ГрГУ, – 2005.– 343 с., Клебанов, Л.Р. Памятники истории и культуры:правовой статус и охрана (монография) /Л.Р.Клебанов –.-Москва: Норма: – 2012. – 176 с., Вахитов, А.К.. Административно-правовая охрана обьектов культурного наследия:/ дис.юридических наук./ – Москва:– 2007.–155 с. Ваганова, Е.В. Охрана памятников истории и культуры:памятники историко-культурного наследия (на примере Республики Бурятия), /Е.В.Ваганова, В.ВГапоненко – Улан-Удэ: Изд. – полигр комплекс ВСГАКИ, –.2006.– 286 с., Прохорова, Л.Д..Памятники истории и культуры и их охрана /Л.Д.Прохорова. – Омск: Изд-во ОмГТУ, – 2008.– 70 с., Васильева, М.В. Памятники истории и культуры как объекты гражданско-правовой охраны /М.В.Васильева, И.В.Савельева. // Советское государство и право, – Москва: 1985. № 10. – с. 105–111., Павлова, Л.В. Статус всемирного культурного наследия в международном праве // Журнал международного права и международных отношений. Белорусский Гоудартвеннй Университет, – 2007. №4, – с.3-10., Молчанов, С.Н. К вопросу о правовом режиме культурных ценностей (опыт универсального подхода) // http:// smolchanov.narod.ru/;

fenomeninin məzmununun təkcə maddi deyil, həm də qeyri-maddi obyektlərin də aidiyyatı fərziyyəsini irəli sürürük.

Aparılan araşdırmalar tarix və mədəniyyət abidəsi fenomeninin daha çox hüquqşünaslıq aspektindən tədqiqata cəlb olunduğu faktını üzə çıxartdı. Bu fakt cəmiyyətdə "tarix və mədəniyyət abidəsi" fenomeninin dərindən öyrənilməsi tələbatının aktuallığını qabardır. Aktuallığın digər istiqaməti bu problemin Azərbaycan hüquqşünasları tərəfindən tədqiqata cəlb olunmaması ilə bağlıdır.Tədqiqatçı S.Süleymanlının mədəni irsin qorunmasının Azərbaycan qanunvericiliyində tənzimlənməsi problemlərinə həsr etdiyi monoqrafiya diqqəti cəlb etsə də, lakin tarix və mədəniyyət abidəsi fenomeninin tədqiqi kölgədə qalmışdır.[3]Aparılan araşdırmalar Azərbaycan abidələrinin hüquqi müstəvidən öyrənilməsinə rusiyalı tədqiqatçı İ.E. Martınenko tərəfindən təşəbbüs göstərildiyini sübut edir[4].

Araşdırmalar semiotika problemləri ilə məşğul olan alimlərin abidələrə "rəmz" (yəni "simvol"), "işarə", "mətn" aspektindən yanaşması faktını da üzə çıxartdı. Semiotikanın klassik nəzəriyyəçisi Y.Lotmanın fundamental əsərlərində ayrı-ayrı tarixi mərhələlərin mədəniyyət və incəsənət nümunələrinin öz dövrlərinin kodlaşdırılmış "işarə" və "mətn"ləri olması haqqındakı konsepsiyası müasir tarixdə həmin nümunələrin abidə statusunda semiozis paradiqmasını qabardır[5]. Bu tədqiqatların tezisləri tarix və mədəniyyət abidəsi fenomeninin müasir interpretasiyasının nəzəri cəhətdən əsaslandırılması baxımından metodoloji əhəmiyyət kəsb edir. Eyni tezislə Y.V.Artyomovanın tədqiqatında da rastlaşırıq[6]. Abidələri

---

[3] Süleymanlı,S. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi. /S.A.Süleymanlı. – Bakı, Azərbaycan,– 2018. – 296 s.

[4].Мартыненко, И.Э. Международная и национальные правовые системы охраны историко-культурного наследия государств-участников СНГ. Учебное пособие /И.Э.Мартыненко.– Москва: Зерцало,– 2012. –943 с.

[5] Лотман, Ю.М.. Семиосфера / Ю.М.Лотман.– Санкт-Петербург:Искусство,– 2000.– 704 с., Лотман, Ю.М.. Статьи по семиотике культуры и искусства / Ю.М.Лотман. – Санкт-Петербург:Академический проект, – 2002.– 543 с.

[6] Артемьева, Е.В. Семантические аспекты изучения памятников истории и культуры // Теория, методология, практика. Сб. научных трудов/ НИИ культуры, серия Памятниковедение.Москва:– 1986.– с. 62-75.

sosial fenomen kimi tədqiq edən İ.Q.Kravçenko da, tarix və mədəniyyət abidələrinin sosial həyatdakı rolunu onların mədəni mətn, simvollar kimi ötürdükləri informasiya ilə izah edir[7].

Muzey əşyasını mədəniyyət mətni kontekstində tədqiq edən E.V.Starinkova muzey əşyasına abidə rakursundan yanaşaraq əşyanın bütün struktur hissələrində kök salmış informasiyanı semiotika bucağından mədəni mətnlər kimi tədqiq edir. Müəllifin mədəni mətn kimi abidələrin özünəxas "dilə" mənsub olması haqqındakı tezisi dissertasiyamızın məzmunu ilə səsləşir. Söz mədəniyyətin sistemyaradıcı elementi funksiyasını yerinə yetirdiyi kimi, abidə kimi tanınan obyektlər də mədəniyyətdə funksional və mənayaradıcı missiyanı yerinə yetirir[8]. Bu tədqiqatların nəticələrindən əldə olunan elmi qənaət abidələrdəki müxtəlif işarə sistemlərinin qarşılıqlı təsirinin muzeyşünaslıq diskursunun formalaşdırmasından ibarətdir.

Ötən əsrin 50-60-cı illərindən abidələrin mühafizəsi istiqamətində başlayan hərəkat bunların mühafizəsi problemlərinin muzeyşünaslıq tədqiqatlarının obyekt və predmetinə çevrilməsinə səbəb oldu. A.M.Kulemzinin dissertasiyasında tarix və mədəniyyət abidələri haqqında irəli sürülən konsepsiya novator cəhəti ilə diqqəti cəlb edir. Onun fikrincə, abidələrə münasibət cəmiyyətin sivillik, inkişaf, mənəvi səviyyə göstəricisi kimi çıxış edir[9]. Tədqiqatçı tarix və mədəniyyət abidəsinin yeni tərifinin müəllifi olmaqla yanaşı, bu fenomenin müxtəlif səviyyələr üzrə təsnifatını da tərtib etmişdir.

Tarix və mədəniyyət abidələrinin öyrənilməsində P.B. Boyarskinin elmi rəhbərliyi ilə 1986-cı ildə "Abidəşünaslıq" adı

---

[7]Кравченко, И.Г. Памятник-как социальный феномен: /дис. кандидата философских наук./–.Волгоград, 2008, 121 с.

[8] Старинкова, Е.В. Музейный предмет как текст культуры: /автореферат дис. кандидата культурологии./– Санкт-Петербург, 2014.– 26 с.
Камочкин, Г.А. Семиотические основания изучения архитектурной деятельности // Ярославский педагогический вестник, – 2012. №4, т.1., – с.255-259.

[9]Кулемзин, А.М. Охрана памятников России как историко-культурное явление: /дис. доктора культурологических наук/ – Томск, 2001. – 403 с., Кулемзин, А.М.. Методика сохранения и использования памятников истории и культуры. Учебное пособие. Кемерова: Кем ГУКИ, – 2009,– 109 с.

altında bir-birinin ardınca dərc olunmuş elmi topluları, “Abidəşünaslığa giriş” monoqrafiyası “tarix və mədəniyyət abidəsi”nə yeni–sistemli yanaşmanın əsasını qoydu. Onun “Abidəşünaslığın nəzəri əsasları (problemin qoyuluşu)” adlı məqaləsində ilk dəfə olaraq abidəşünaslığın elmi əsaslandırılması yer alır[10]. Müəllifin iddiasına görə, “*abidəşünaslıq sahəsində aparılan tədqiqatların predmetini tarix və mədəniyyət abidələrində kök salmış informasiya təşkil edir*”[11]. Muzeyşünaslıq isə, həmin informasiyanın mühafizəsi, məsələlərinin həllini öz predmetinə aid edir. Məhz bu cəhət abidəşünaslığın muzeyşünaslıqla vəhdətini qabardır. Humanitar elmlər sistemində özünü doğrultmağa başlamış “Abidəşünaslıq” hazırda postsovet məkanının bir sıra respublikalarının (Ukrayna, Qazaxıstan, Belorus, Özbəkistan) elmi dövriyyələrinə daxil edilmiş, hətta ali məktəblərin tədris planlarına da salınmışdır. Tarix və mədəniyyət abidələrinin tədqiqi, öyrənilməsi, mühafizəsi məsələsindəki bu elmi fənnin prioritetləri sahəvi abidəşünaslığın təşəkkülünə də səbəb olmuşdur. Adları qeyd olunan respublikalarda abidəşünaslıqla yanaşı, kitab abidəşünaslığı[12], dağ abidəşünaslığı[13],

---

[10]Памятниковедение: теория,методология, практика//сб.науч.тр./ред.сост. П.В.Боярский– Москва: Научно-исследовательский институт культуры,– 1986.–148 с.

[11]Боярский, П.В.Введение в памятниковедение. (монография) /П.В.Боярский. –.Москва:– 1990. – 218 с.

[12]Ковальчук,Г.И. Книжное памятниковедение:теоретико-методологические аспекты // Библиотеки нац.акад.наук.проблемы функционирования, тенденции развития.– К: 2005. Вып.3, – с.242-249., Яцинук, Е.И.Книжные памятники//Книга:Энциклопедия.– Москва:1999.– с.327-335., Яцинук, Е.И. Проблкмы создания единого фонда книжнх памятников страны//Книга: Исследования и материалы.– Москва: 1992.Сб.64, – с.37-42., .Яцинук,Е.И. Сохранм книжные памятники//Вестник БАЕ,2000.– с.53-59.

[13].Веденин, Ю.А Культурный ландшафт как обьект наследия. (монография) /Под ред. Ю.А.Веденин., М.Е.Кулешевой. – Москва: Институт наследия, – 2004.– 620 с

Шульгин, П.М. Возраждение и развитие памятников истории, культурыи природы на принципах уникальной исторической территории//Новое в музеефикации памятников.Москва:Информкультура, – 1991. – с.1-11.

texnika abidəşünaslığı[14]kimi konkret sahələr üzrə tədqiqatlar da aparılmaqdadır.

Abidəşünaslığın nəzəri və metodoloji problemləri A.V.Dyaçkov, V.B.Bazarjanov, A.D.Aryanov, L.A.Qriffen, V.İ.Lavrenov, S. Kot tərəfindən də işlənilmişdir[15]. Abidəşünaslıq istiqamətində aparılan tədqiqatların demək olar ki, hamısında yalnız maddi, daşınmaz obyektlərin "tarix və mədəniyyət abidəsi" statusuna keçidinin mümkünlüyü tezisi başlıca yer tutur. Öz tədqiqatımızda bu tezisi təkmilləşdirərək qeyri-maddi obyektlərin də bu statusa transformasiyasını elmi cəhətdən əsaslandırmağı qarşımıza məqsəd qoymuşuq.

Aparılmış araşdırmalar pedaqoq alimlərin tarix və mədəniyyət abidələrinin tərbiyələndirici, maarifləndirici potensialının tədqiqinə diqqət yetirdiklərini də üzə çıxartdı. Abidələrin həm, rəngarəng xassələrini tədqiq edənlər[16], həm də pedaqoji aspektdə araşdıranlar

---

[14]Тютюнник, Ю.Г. Обьекты индустральной культуры и ландшафт /Ю.Г.Тютюнник.– Киев:Издательско-печатный комплекс Университета Украина,– 2007.– 152 с

15.Дьячков, А. Н. Памятники в системе предметного мира культуры // Памятник и современность: Вопросы освоения историко-культурного наследия: сб. научн. тр. – Москва:– 1987. –с. 41-60.., Базаржанов, В.Б. Памятники истории и культуры как культурно-исторический феномен (методическая разработка к лекции по курсу «Памятники истории и культуры и их охраны») /В.Б.Базаржанов, А. Арьянов – Улан-Уд: – 2005. – 24 с., Гриффен, Л.А. Теоретические основания памятниковедения /Л.А.Гриффен.– Киев: Центр пам'яткознавства НАН України і УТОПІК,–2012. –145 с., Лавренов, В.И. Введение в зарубежное памятниковедение: учебно-методическое пособие для студентов. / В.И.Лавренов – Тверь:ТУШ, –2006.–64 с.,

.Кот, С. Теоретичні проблеми пам'яткознавства. – Пам'яткознавчі студії в Україні:теорія і практика/С.И.Кот. – Киев:– 2007,– 336 с.

[16] Артишевская, М.И. Социальная значимость памятников архитектуры. / М.И. Артишевская –Минск: Беларусь,– 1976. –31 с.. Дьячков, А.Н. Памятники в системе предметного мира кльтуры // Памятник и совремменность: Вопросы освоение историко-культурного наследие: сб. науч.тр.–Москва: – 1987.–с..41-60.,

Чернявская, Е.Н. Ценность и оценка памятников архитектуры//Памятники и современность: Памятники в контексте историко-культурной среды. – Москва: – 1990.– с.41-59.

Селезнева, Е.Н.. Социально-эстетические функции памятников истории икультуры// Вопросы освоения историко-культурного наследия НИИ культуры. Москва:–1987.–с.23-40.

bu fenomenin güclü tərbiyə-təhsil vasitəsi olduğu arqumentini sübut edirlər[17]. Bu elmi tədqiqat, tədris metodiki mənbələr tarix və mədəniyyət abidələrinin informativlik, eskpressivlik, attraktivlik, assosiativlik kimi xassələrə malik olduğundan kommunikasiya prosesində məktəblilərin yeni biliklərə yiyələnməsi, təfəkkürünün inkişafı, kamil şəxsiyyət kimi formalaşmasına əhəmiyyətli dərəcədə təsir etdiyini sübuta yetirir. Problemin pedaqoji aspektdə tədqiqi muzeyşünaslıq kontekstlərinin üzə çıxarılmasına əhəmiyyətli şəkildə kömək edir. Çünki informativlik, ekspressivlik, attraktivlik, assosiativlik – muzey əhəmiyyətli obyektlərin təməl xassələridir.

Ənənəvi düşüncə tərzində "abidə", ilk növbədə, incəsənət nümunəsi kimi dərk olunur. Bu cəhət tarix və mədəniyyət abidəsi fenomeninin sənətşünaslığın tədqiqat obyektinə çevrilməsində də başlıca rol oynamışdır. Sənətşünas-alimlər A.V.Salamzadə, memar-alimlər Ş.Fətullayev, C.Qiyasi fundamental elmi tədqiqatlarında memarlıq obyektlərinin memarlıq, sənətşünaslıq aspektində təhlili mühüm yer tutur[18]. Görkəmli memar-alim Ş. Fətullayevin

---

[17] Хохлов, А.А.Развитие познавательного интереса старшеклассников при изучении материальных памятников истории и культуры в учреждения дополнительного образования: /дис..кандидата педагогических наук./ –Киров, –1998.175 с., Белявский, М.Т. Работа в музеях и с историческими памятниками при изучении истории СССР (с древнейших времен до 1917г.) – Москва: Высш. шк.– 1978. –224 с., Сытина, Т.М. Использование памятников архитектуры в коммунистическом воспитании// Теория, методология, практика НИИ культуры,– Москва: – 1986.–с.108-123., Azərbaycan tarixinin öyrədilməsi prosesində tarix və mədəniyyət abidələrindən istifadəyə dair(metodiki tövsiyyə) / hazırlayanlar: N. İsrafilov, R. Əbilova–Bakı: Maarif,–1985.–21 s., Амубуттаева, П.М.. Проблемы изучения воспитательного потенциала памятников архитектуры в учебном процессе. // Успехи современного естествознания. – Москва: –2009. № 9, – с. 183-184

[18] Salamzadə,, Ə.V. Azərbaycan memarlıq abidələri / Ə.V.Salamzadə.– Bakı:– Azərnəşr,–1958.–99 s., Salamzadə, A.V.Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. /K.M.Məmmədzadə. –Bakı: Elm, –1985. –268 s.
Salamzadə, A.V. Şəkinin memarlıq abidələri /.K.M.Məmmədzadə–Bakı: –Elm,–1987.–138 s., Фатуллаев, Ш.С. Градостроительство и архитектура Азербайджана XIX-начала XX века/ Ш.С.Фатуллаев.–Ленинград.: Стройиздат, ЛО, –1986.–455 с., Qiyasi, C..Nizami dövrü memarlıq abidələri. / C.Qiyasi.–Bakı: – İşıq, – 1991. –162 s., Bayramov, R.M.. Azərbaycan xalq memarlıq abidələrinin tipoloji təsnifatı (XI-XIII əsrlər): / memarlıq üzrə elmlər namizədi dis./– Bakı, 1984. –183 s., Самедоva, С.А..Принципы сохранения и

fundamental tədqiqatında mühafizəyə götürülməsi zəruri sayılan və tərtib olunan “Azərbaycan memarlıq abidələrinin Toplusu” muzeyşünaslıq kontekstindən əhəmiyyətli bir elmi addım idi. Çünki müəllif, həmin Toplunu, məhz tarixi, bədii-estetik, forma –üslub xüsusiyyətlərinə görə unikal, orijinal olan memarlıq tikililərinin tarix və mədəniyyət abidəsi statusunda tanınması və mühafizəsi məqsədilə tərtib etmişdir.

Epiqrafik abidələrin təşəkkülündə görkəmli alim M. Nemətin 6 cildlik “Azərbaycanın epiqrafik abidələri” adlı fundamental toplusu təkcə tarix, arxeologiya, etnoqrafiya deyil, muzeyşünaslıq kontekstindən də əhəmiyyət kəsb edir. Müəllif bu yazıların elmi, tarixi, bədii-estetik, texnoloji dəyər potensialını araşdırmış, milli epiqrafik irsin sistemini yaratmaqla muzeyşünaslıq kontekstindən əhəmiyyət kəsb edən tarix və mədəniyyət abidələrinin yeni istiqamətini müəyyən etmişdir[19]. Məsələyə eyni prizmadan yanaşmağı qarşısına məqsəd qoymuş tədqiqatçı C.A.Hacıyeva isə, xatirə abidələri üzərindəki təsvirlərin mədəniyyət abidəsi kimi dərkini elmi cəhətdən əsaslandıra bilməmişdir[20]. Azərbaycanın

---

восстановления Ичери Шехер как памятника градостроительного искусства:/ дис.кандидата архитектуры./–Баку, 1983.–132 с.

[19] Nemətova, M.S. Azərbaycanın epiqrafik abidələri:[6 cilddə], Bakı-Abşeronun ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəli) / M.S.Nemətova. –Bakı: Azərnəşr,– I c ..–1991.– 121 s.. Nemət, M.S. Azərbaycanın epiqrafik abidələri:[6 cilddə], Şəki-Zaqatala bölgəsinin ərəb-fars-türkdilli kitabələri (XIV-XX əsrlərin əvvəli)/ M.S.Nemət.–Bakı:XXI YNE, IIc. – 2001.– 132 s., Nemət, M.S. Azərbaycanın epiqrafik abidələri:[6 cilddə], Naxçıvan Muxtar Respublikasının ərazisindəki ərəb-fars-türkdilli kitabələr (XII-XX əsrlərin əvvəli) / M.S.Nemət. – Bakı: XXI YNE, III c. –2001. – 146 s., Nemət, M.S. Azərbaycanın epiqrafik abidələri:[6 cilddə], Quba-Xaçmaz Cənubi Dağıstanın ərəb-fars-türkdilli kitabələri (VIII-XX əsrlərin əvvəlləri)/ M.S.Nemət. – Bakı: Nurlan, VI c.–2008.–123 s., Nemət, M.S. Azərbaycanın epiqrafik abidələri: [6 cilddə], Şirvan, Gəncə, Ağdam, Füzuli, Şuşa, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və başqa rayonların ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəlləri) /M.S.Nemət. –Bakı: Elm və Təhsil,– V c. –2011.– 143 s., Nemət, M.S. Azərbaycanın epiqrafik abidələri:[6 cilddə], Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr (XVII-XIX əsrlər) / M.S.Nemət. –Bakı: Elm və təhsil, –VIc. – 2011. –141 s.

[20]Hacıyeva, C.A.Azərbaycanın Naxçıvan bölgəsində xatirə abidələri üzərindəki təsvirlər mədəniyyət abidəsi kimi: / tarix elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dis. avtoreferatı.) –Naxçıvan,–2010.–22 s.

memarlıq abidələrinin populyarlaşdırılması məqsədilə Ə. Ələkbərli, T.Haqverdiyev, F.İsmayılovun kitablarını da misal göstərmək olar[21].

Azərbaycanda humanitar biliklər sistemində yeni formalaşmış muzeyşünaslıqla bağlı problemlərin həllində tarix və mədəniyyət abidələri mövzusuna müraciət ürəkaçan təsir bağışlamır. Bu istiqamətdə yalnız bir-neçə elmi, tədris mənbəyinin adını qeyd etmək olar. Muzeyşünas E.Kazımzadənin "Azərbaycanın qoruq-muzeyləri və onların milli-mənəvi dəyərlər sistemində yeri" adlı dissertasiyası Azərbaycanda qoruq abidələrin mühafizəsi problemlərinə həsr olunmuºdu[22]. Tədqiqatçı İçərişəhər, Kiş qoruqları nümunəsində respublikada açıq səma altında abidələrin mühafizəsi problemlərini araşdırmışdır. Dissertasiyanın işlənilməsində problemə tarixi-xronoloji yanaşma metodu üstünlük təşkil etdiyindən tədqiqatçı adları qeyd olunan obyektlərin təşəkkülü, inkişafı və muzey obyekti kimi təkmilləşməsi prosesini araşdırmışdır. Müəllif bu bəşəri əhəmiyyətli maddi dəyərlərin "tarix və mədəniyyət abidə" statuslu obyekt kimi interpretasiyasını kölgədə qoymuşdur.

Hazırkı problemlə bağlı təəssüfdoğurucu məqamlardan biri azərbaycanlı arxeoloq-alimlərın arxeoloji abidələrlə bağlı tədqiqat və elmi kitablarında "abidə", "arxeoloji abidə" fenomenləri ilə bağlı elmi təhlil və aydınlaşmalarına rast gəlinməməsidir. Məsələn, V.Baxşaliyev, E.N.Əliyevin elmi əsərlərini buna misal göstəmək olar[23]. Halbuki "abidə" fenomeninin müasir elmi dərkində L.S.Kleyn kimi tanınmış arxeoloqun konseptual tezisləri mövcuddur.

---

21 Ələkbərli, Ə.Qərbi Azərbaycan abidələri /Ə.Y.Ələkbərli. Bakı: Nurlan, /Ə.Y.Ələkbərli. –Bakı: Nurlan, –2007.–217s.
Haqverdiyev, T. Ş. Abidələr tarixin sirdaşıdır /T.Ş.Haqverdiyev. –Bakı: Gənclik, –1982.–88 s.
İsmayılov,F.. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi metodologiyası /İsmayılov F. –Bakı, – Yazıçı- 2014. 120 s., İsmayılov, F. Tarix və mədəniyyət abidələrinin qorunması, istifadəsi və bərpası barədə təlimatlar /F.İ.İsmayılov. –Bakı: Nurlan, –2013. –183 s.

22 Kazımzadə, E..Azərbaycanda qoruq-muzeyləri və onların milli-mənəvi dəyərlər sistemində yeri:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis./ –Bakı., –2011. – 157 s.

23 Baxşaliyev,V. Naxçıvanın arxeoloji abidələri /V.B.Baxsalıyev. – Bakı.: Elm, –2008. – 304 s. , Əliyev,E.H. Ordubad bölgəsinin tunc və ilk dəmir dövrü arxeoloji abidələri: / tarix elmləri namizədi. dis. avtoreferatı./ – Bakı, – 2009. – 24 s.

Azərbaycanlı arxeoloq-alim və tədqiqatçıların "abidə"nin izahına biganəliyi ümumi halda respublika elmi ictimaiyyatında "abidə", "tarix və mədəniyyət abidəsi" fenomeni haqqında dərin və aydın elmi təsəvvürün formalaşmaması səbəbi kimi arqumentləşdirilməlidir.

Azərbaycandan kənarda "tarix və mədəniyyət abidəsi" fenomeni muzeyşünaslığın daha çox tədqiqat obyektinə yönəlmiş məsələlərdən biridir. Tarix və mədəniyyət abidələrini bu istiqamətdə tədqiqat obyektinə çevirmiş muzeyşünas-alimlərdən S.M.Şestova, M.A.Kinderskaya, A.V.Rabotkeviç, N.A.Koçelyayeva, A.N.Balaş, F.N.Medved, B.T.Sizov, eyni zamanda A.Kulemzinin elmi-tədqiqatlarını misal göstərmək olar[24]. Xüsusilə, abidələrin mühafizəsi probleminin araşdırılması daha çox diqqəti cəlb edir. Tədqiqatçılardan A.Kulemzin, S.M.Şestova, M.A.Kinderskaya tarix və mədəniyyət abidələrinin mühafizəsinin tarixi dinamikasını araşdırmış, bu problemin həlli fonunda həmin fenomenin muzeyşünaslıq kontekstlərinə də müəyyən səviyyədə aydınlıq gətirsələr də, lakin abidələrin dəyər potensialına əsasən dəyərləndirilməsi təhlilə cəlb olunmamışdır. Təəssüflə qeyd etmək lazımdır ki, bu problemin araşdırılması Azərbaycan muzeyşünaslığında diqqətdənkənarda qalmış, həmin məsələnin öyrənilməsinə ciddi elmi-tədqiqat işi həsr olunmamışdır. Bu isə,

[24] Шестова, С.М. Историко-культурологический анализ нормативного регулирования охраны и использования памятников истории и культуры в России: /дис. кандидата культурологии./ –Санкт-Петербург, 2009.–160 с., Киндерская, М.А. Музейное дело и сохранение историко-культурных памятников России:начало XX в.-конец 1930-х гг: /дис. кандидата культурологии./ Краснодар, –2005. –159 с., Работевич, А.В. .Государственная политика в облсти охраны памятников истории и культуры в России в XVIII-начале XX века: /дис. кандидата культурологии./ – Москва, –1999.–295 с., Кочеляева, Н.А. Памятники русской паломнической письменности (XII-XVII вв.) в мемориализации христианского культурного наследия: /дис. кандидата исторических наук:спец.:музееведение/ –. Москва, 2004, –.313 с., Балаш, А.Н.. Коллекционирование памятников античного искусства в России в первой половине XIX века:на материале частных собраний: /дис. кандидата. культурологии./–Санкт-Петербург, –1999.–417 с., Медвед, Ф.Н.. Музеефикация средневековых памятников археологии: /дис. кандидата исторических наук./ –Москва, –1999.–172 с., Сизов, Б.Т. Сохранение памятников из камня на открытом воздухе: скульптура, архитектур, декор:/дис.кандидата культурологии./ –Москва, –1998.–128 с.

hazırkı dissertasiyada qarşıya qoyduğumuz problemin həllinin aktuallığını bir daha qabardır.

Beləliklə, problemin işlənilmə səviyyəsi istiqamətində aparılan araşdırmalar sübut edir ki, tarix və mədəniyyət abidələrinin muzeyşünaslıq kontekstində öyrənilməsi, onların dəyərləndirilməsi fraqmentar səciyyə kəsb etdiyindən daha dərindən araşdırılmasını tələb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini "tarix və mədəniyyət abidəsi", predmetini **isə,** tarix və mədəniyyət abidələrinin dəyər potensialının muzeyşünaslıq kontekstində dəyərləndirilərək təhlili təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.**Tədqiqatın məqsədi "tarix və mədəniyyət abidəsi"nin statuslu fenomen kimi araşdırılmasıdır.

Bu məqsəddən irəli gələrək aşağıdakı **vəzifələrin** həyata keçirilməsi qarşıya qoyulmuşdur:

- "Abidə" haqqında təsəvvürlərin genezisinin yaddaş mədəniyyəti paradiqmasından təhlili;
- "Abidə" anlayışının təkamül dinamikasının tarixi xronologiyaya əsasən izlənilməsi və interpretasiyası;
- Mədəni dəyər, mədəni irs, abidə- nisbətinin araşdırılması;
- Mədəni irs obyektinin "abidə" kimi konstruksiyalaşması motivlərinin üzə çıxarılması;
- Tarix və mədəniyyət abidələrinə xas olan əlamət, xüsusiyyət və funksiyaların üzə çıxarılması;
- Tarix və mədəniyyət abidəsinin başlıca muzeyşünaslıq konteksti kimi qoruyuculuq, mühafizə xüsusiyyətlərinin araşdırılması;
- Tarix və mədəniyyət abidələrinin təsnifat prinsiplərinin təhlili;
- "Tarix abidəsi" və "mədəniyyət abidəsi" anlayışlarının muzeoloji interpretasiyası;
- Tarix və mədəniyyət abidəsinin dəyər potensialının, onun hüquqi statusunu müəyyən edən başlıca kateqoriya kimi tədqiqi;
- Abidələrin muzeal dəyər məzmununun (informativlik, attraktivlik, assosiativlik, ekspressivlik, repzentativlik kimi muzeal xassələrinin) araşdırılması;

- Abidələrin muzeal dəyərinin bu fenomenlərin mədəni dəyərinin tərkib elementi kimi dərkinin sübuta yetirilməsi;

- Təkcə maddi və daşınmaz obyektlərin deyil, qeyri-maddilərin də "tarix və mədəniyyət abidəsi" statusuna transformasiyasının zəruriliyinin isbatı;

- Tarix və mədəniyyət abidələrinin tarixi, bədii-estetik, ictimai-sosial dəyərinin muzeyşünaslıq kontekstində təhlili;

- Tarix və mədəniyyət abidələrinin muzeyşünaslıq kontekstində dəyərləndirilməsi məsələsində ekspertizanın rolu və vəzifələrinin üzə çıxarılması;

- Tarix və mədəniyyət abidələrinin dəyərləndirilməsindəki iki istiqamətin-onların interpretasiyası və pulla qiymətləndirilməsinin muzeyşünaslıq arqumentlərinin üzə çıxarılması;

- Tarix və mədəniyyət abidələrinin dəyərləndirilməsi istiqamətində ölkə və dünya təcrübəsinin təhlili;

- Abidəşünaslıq fənninin Azərbaycan humanitar elmlər sisteminə inteqrasiyasının obyektivliyini sübutu.

**Tədqiqatın metodları.** Tədqiqatın metodları dissertasiyanın obyekt və predmeti əsasında müəyyən olunmuşdur. Çoxaspektli fenomen olan "tarix və mədəniyyət abidəsi" fenomeni ona kompleks yanaşmanı zəruri edir. Fənlərarası səciyyəyə malik olan muzeyşünaslığın metodologiyasında kompleks yanaşma mühüm yer tutduğundan hazırkı tədqiqatda bu metodoloji prinsipə riayət olunaraq ümumelmi metod və tədqiqat üsulları (təhlil, sintez, induksiya, deduksiya, struktur-funksional metod), muqayisəli-tarixi, müqayisəli-kulturoloji, müqayisəli-semiotik metodlar, metodoloji istiqamətlər kimi sinergetik, aksioloji, hermenevtik, linqvistik yanaşmalar tətbiq edilmişdir. Bundan əlavə, tədqiqatın metodoloji bazasına muzeyşünaslıq nəzəriyyəsinin sənədləşdirilmə, kommunikasiya, interpretasiya kimi əsas elementləri də daxil edilmişdir. Bu metodlardan istifadə məntiqi sxemlərin nizamlı yolu ilə artıq mövcud olan biliklərdən yenilərinin əldə olunmasını nəzərdə tutur. Tarix və mədəniyyət abidələri sahəsində baş verən hadisələrin təhlili məlum faktlara istinadən yeni nəticələrin çıxarılması və sistemləşdirilməsinə imkan yaradır. Hazırkı metoddan, əsasən tarix və mədəniyyət abidəsi fenomeninin tarixi inkişaf konsepsiyasının

formalaşdırılmasında istifadə olunmuşdur. Xüsusilə, “mədəni irs”, “mədəni dəyər”,” tarix və mədəniyyət abidəsi” fenomenlərinin ayrı-ayrı (induktiv) və vəhdətli (deduktiv) metod əsasında təhlilə cəlb olunması bu fenomenlərin hər birinin muzeyşünaslıq kontekstlərinin üzə çıxarılmasını mümkün edir. Bu prosesdə interpretasiya metodoloji yanaşmadan da məqsədəuyğun şəkildə istifadə olunmuşdur. Müqayisəli təhlil metodu tarix və mədəniyyət abidəsi statusunun müxtəlif mədəniyyətlərdəki nisbiliyini, zaman kontinuumundakı dəyişikliyini üzə çıxarılması, abidənin dinamik sistem kimi özünəməxsusluğunun qabardılmasına kömək etmişdir. Bu metod sayəsində abidə fenomeninin müxtəlif təkamül səviyyələrinin fərqli xüsusiyyətləri araşdırılmışdır. Mədəni irs obyektlərinin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasında tarixi münasibətin izlənilməsi məqsədilə tarixi yanaşma metodundan da istifadə edilmişdir.

Tədqiqat zamanı funksional metodun tətbiqi müasir cəmiyyətdə tarix və mədəniyyət abidəsinin rolunun aşkar edilməsinə kömək etmişdir. Dissertasiyada geniş formatda tətbiq edilən aksioloji metod tarix və mədəniyyət abidəsi və ona qohum olan mədəni irs, mədəni dəyər fenomenlərinin dəyər aspektləri, bunun əsasında muzey dəyərinin mahiyyətinin açılmasına yaxından kömək etmişdir. Eyni zamanda müxtəlif mədəniyyətlər çərçivəsində tarix və mədəniyyət abidəsi anlayışının qrammatik və semantik təhlilləri linqvistik və hermenevtik yanaşma metodu əsasında həyata keçirilmişdir. Yaddaş, əbədiləşdirmə nəzəriyyələri kontekstində təhlillər aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə tədqiqatın yeniliyini əks etdirən aşağıdakı müddəa və nəticələr təqdim olunur:

1. Azərbaycan dilində “abidə” anlayışının etimologiyası “yaddaş”, “xatirə” fenomeni ilə əlaqədardır;

2. “Tarix və mədəniyyət abidəsi” fenomeninin formalaşmasında “abidə” anlayışının cəmiyyətdə dərkinin təkamül dinamikası müstəsna rol oynamışdır;

3. “Mədəni dəyər”, “mədəni irs”, “tarix və mədəniyyət abidəsi” fenomenləri biri-birini məntiqi şəkildə tamamlayan

fenomenlərdir. Bu məntiqi asılılıqda “tarix və mədəniyyət abidəsi” statuslu fenomen kimi qəbul edilməlidir;

4. “Mədəni irs”, “mədəni dəyərlər” tarix və mədəniyyət abidəsinə nisbətən daha geniş kateqoriyalı fenomenlərdir;

5. Tarix və mədəniyyət abidəsinin statusunu müəyyənləşdirən əsas göstərici onun xüsusi mühafizə rejiminə cəlb olunması ilə qanuni şəkildə dövlət siyahısı, topluları, reyestrində təmsil olunması ilə bağlıdır;

6. “Tarix və mədəniyyət abidəsi” statusuna təkcə maddi dəyərlər deyil, eləcə də qeyri-maddi dəyərlərin də transformasiyası məqsədəuyğundur: bu “qeyri-maddi abidə” anlayışının zəruriliyini qabardır;

7. “Tarix və mədəniyyət abidəsi” muzeyşünaslığın təməl anlayışlarındandır;

8. Mühafizəyə cəlb olunma tələbatı- tarix və mədəniyyət abidəsinin ən mühüm muzeyşünaslıq kontekstidir;

9. Dəyər-abidə statusunu müəyyən edən substratdır;

10. Tarix və mədəniyyət abidəsinin dəyər potensialının strukturu iki: universal (tarixi, ictimai-sosial dəyər) və funksional (bədii-estetik, texniki dəyər) növü əhatə edir.

11. Tarixi dəyər, bədii-estetik dəyər, ictimai-sosial dəyər-tarix və mədəniyyət abidəsinin mühafizəyə cəlbini zəruri edən dəyər potensialıdır. Bu dəyər potensialı, həm də muzeal (muzeylik) dəyər kontekstində dərk olunmalıdır;

12. Muzeal dəyər, muzeal təzahür, muzeal səviyyə-bunlar muzeallığın struktur elementləridir;

13. Muzeal dəyər - tarix və mədəniyyət abidəsinin mədəni dəyər tərkibinin xüsusi bir aspektidir;

14. İnformativlik, ekspessivlik, attraktivlik, assosiativlik, reprezentativlik- tarix və mədəniyyət abidəsinin muzeal dəyər potensialının təzahür elementləridir;

15. Muzeal səviyyə-tarix və mədəniyyət abidəsinin orijinallıq, əsliliyi, unikallıq meyarıdır;

16. Mədəni dəyərin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasında dəyərləndirmə muzeal akt kimi dərk olunmalıdır;

17. Dəyərləndimə aktı kimi interpretasiya- tarix və mədəniyyət abidələrinin aktuallaşmasında mühüm rol oynayır;

18. Tarix və mədəniyyət abidəsinin pulla dəyərləndirilməsində də muzeyşünaslıq aspektləri aparıcı rol oynayır;

19. Ekspertiza- tarix və mədəniyyət abidələrini dəyərləndirən metoddur;

20. Ayrı-ayrılıqda "tarix abidəsi" və "mədəniyyət abidəsi"nin, eləcə də "tarix və mədəniyyət abidəsi"nin təsnifatları təqdim olunur;

21. Mədəni dəyərin tarix və mədəniyyət abidəsi statusuna transformasiya üçün 50 illik yaş xronologiyasının zəruri sayılması məqsədəuyğundur;

22. Bədii-estetik dəyərin muzeallığı tarix və mədəniyyət abidəsində cəmlənən informativlikdə, bu informasiyanın insanı həyəcanlandıran ekspressivlikdə, assosiativlikdə təzahür tapır;

23. Tarix və mədəniyyət abidəsinin tarixi-memorial, elmi, bədii-estetik dəyəri onun ictimai-sosial dəyərinin təzahürüdür;

24. Qeyri-maddi abidələr abidəşünaslığın obyekt və predmeti kimi qəbul edilməlidir.

**Tədqiqatın elmi yeniliyi** "tarix və mədəniyyət abidəsi"nin ilk dəfə muzeal xassələrinin araşdırılması, bu fenomenin müasir dövrlə səsləşən yeni modelinin təqdimindən ibarətdir. Tarix və mədəniyyət abidəsinin status səviyyəsində dərki yeni modelin məğzini təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri "tarix və mədəniyyət abidəsi" fenomeninin mahiyyət və əhəmiyyətinin daha dərindən dərkini mümkün edir. Tədqiqatın yekun elmi qənaətləri muzeyşünaslıq və onunla inteqrasiyada olan digər elmlərdə tarix və mədəniyyət abidəsi fenomeninin müasir modeli haqqında təsəvvürün formalaşmasını təmin edir. Bundan çıxış edərək dissertasiyanın nəticələrindən istər abidə problemləri ilə məşğul olan tədqiqatçılar, istərsə də tarix və mədəniyyət abidələrinin mühafizəsi sahəsində çalışan dövlət məmurları, mütəxəssislər bəhrələnə bilərlər. Xüsusilə, bu istiqamətində dövlət siyasətinin təkmilləşdirilməsi, qanunvericilik bazasında dəyişikliklərin edilməsi prosesində istifadə oluna bilər. Dissertasiya materiallarından mədəni irs, tarix və mədəniyyət abidələrinin mühafizəsi üzrə xüsusi kursların tədrisi,

həmçinin tədris proqram və vəsaitlərin, dərsliklərin yazılmasında istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəa və nəticələri muzeyşünaslıq, arxiv işi, tarix və mədəniyyət abidələrinin qorunması ixtisası üzrə bakalavr və magistratura pillələrində tədris olunan "Tarix və mədəniyyət abidələrinin mühafizəsi", "Abidəşünaslıq" fənlərinin mühazirələrində, eyni zamanda mədəni irs, tarix və mədəniyyət abidələrinin mühafizəsi problemlərinə həsr olunmuş elmi-nəzəri konfransların məruzə və tezislərində, dərs vəsaitləri və monoqrafiyalarda öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu** tədqiqat mövzusunu əsaslandıran giriş (16 səhifə, 3900 söz, 30.051 işarə), dörd fəsil, on yarımfəsil (244 səhifə, 65.235 söz, 478.663 işarə), nəticə (10 səhifə, 2122 söz, 16.498 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı (37 səhifə, 7876 söz, 52.284 işarə) və əlavələrdən (9 səhifə, 144 söz, 1060 işarə) ibarətdir. Dissertasiya mətninin ümumi həcmi 526.207 işarədən ibarətdir..

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**-də tədqiqata cəlb olunan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, metodoloji əsası, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası və digər məsələlər təhlil olunur.

**I Fəsil-"Muzeyşünaslıq-tarix və mədəniyyət abidələrini tədqiq edən elm kimi"** adlanaraq iki yarımfəsli əhatə edir. Birinci yarımfəsildə abidə fenomeninin genezisinə muzeyşünaslıq kontekstindən yanaşılmış, ikinci yarımfəsildə "tarix və mədəniyyət abidəsi" mədəni dəyər, mədəni irs fenomenləri nisbətində tədqiq edilmiş və elmi nəticələr ortalığa qoyulmuşdur.

Birinci yarımfəsil **" "Abidə" fenomeninin muzeyşünaslıq kontekstləri"** adlanır. Bu gün muzeyşünaslığın tədqiqat əhatəsi xeyli genişlənməkdədir. Tanınmış muzeoloqlar Z.Stranski, Z.Bruna, R.Lanın insanda onu əhatə edən aləmə "muzey münasibəti"nin formalaşması haqqındakı konsepsiyaları muzeallıq (muzeylik) konseptini qabardır. Muzeallıq- obyektin əzəli xassəsi deyil, bu yalnız insanın onu əhatə edən aləmə, tarixi, mədəni irsə xüsusi münasibətidir. Müasir muzeyşünaslıq, xüsusilə də, onun bir

istiqamətini təşkil edən muzey mənbəşünaslığı, təkcə muzeydaxili deyil, həm də muzey missiyalarını reallaşdıran mədəni irsin bütün fenomenlərinin təfsiri, tədqiqi işini də öz üzərinə götürür. Bu prosesdə mədəni irsin maddi və qeyri-maddi dəyərlərinə vahid paraqdiqmadan yanaşma obyektiv səciyyə kəsb edir. Muzey münasibətinin başlanğıclarında semantik, aksioloji, informativlik kimi meyar üçlüyünü əsas götürən bu konsepsiyanın müəllifləri (xüsusilə Z.Stranski) ətraf aləmdəki maddi və qeyri-maddi obyektlərin insanlarda "muzey marağı" yarada bilən xassələrini "muzey münasibəti"nin ilkin səviyyəsi kimi qiymətləndirirlər. Bu konsepsiya və ondan törəyən ideyalar "tarix və mədəniyyət abidəsi"nin muzeal fenomen kimi əsaslandırılmasında həlledici arqumentdir. Uzun müddət abidələrin muzeydənkənar obyektlər kimi dərki müasir muzeyşünaslıqda streotip kimi qarşılanır. Bundan çıxış edərək tədqiqatçı Y.U.Quralnikin ötən əsrdən başlayaraq *"muzeyşünaslıq keçmişin izləri-tarix və mədəniyyət abidələrinin tarixən və müasir mövcudluq problemlərinə istiqamətlənmiş özünəxas biliklər sistemi kimi daha fəal surətdə ictimai şüura nüfuz edərək yeni çevrələr əldə edir"*-[25] fikri əsaslı sayılır.

Tarix və mədəniyyət abidəsi muzeal struktura malik bir fenomendir!-bu yarımfəsildə sübuta yetirilən əsas müddəalardan biri belə səslənir. Muzeal məzmun, muzeal təzahür, muzeal səviyyə - bu komponentlər ilk dəfə hazırkı tədqiqatda formalaşdırılmış muzeal dəyərin morfoloji strukturunun məzmununu təşkil edir. Dəyər-muzeal substansiyadır. Tədqiqatçılar T.Kalugina, O.S.Sapanjanın bu problemlə bağlı mülahizələri diqqətiçəkəndir[26]. "Muzeal" predikatı bütün hallarda olduğu kimi, burada da mühafizə arqumentini qabardır. Muzeal strukturun digər komponenti olan muzeal səviyyə: əsillik, orijinallıq, unikallığı ifadə edir. Muzeal təzahür: informativlik,

---

[25] Гуральник, Ю.У..Каким быть музею будущего? (опыт социологического анализа) / Ю.У. Гуральник // Музееведение. На пути к музею XXI века: сб. науч. тр. –Москва. –с.135-144.

26.Калугина,Т.П. Художественный музей как фномен культуры. / Т.П.Калугина. – СПб.:– 2008. – 244 с., Сапанжа, О.С. Культурологическая теория музейности: /автореферат дис. доктор культурологии./ – Санкт-Петербург, –2011.–.58 с.

ekspressivlik, attraktivlik, assiosativlik, reprezentativlik kimi xassələrdə əksini tapır. İnformasiya potensialı abidənin üç mühüm komponentində: atributiv səciyyə (ölçü, çəki, rəng, material və faktura və s.), informasiyanı özündə qeydə almış daşıyıcı (təsvir, mətn, işarə, memarlıq nümunəsi, heykəl və s.), obyektin mənşəyi, mövcud olduğu mühitlə bağlı semantik və mədəni əhəmiyyətində təzahür tapır.

Muzeallığın təzahür elementi olan ekspressivlik abidənin insanda həyəcan və emosiyalar oyatma səbəbidir. Mənimsənilən informasiyadan oyanan hisslər insanın psixi həyəcanlanması ilə müşayiət olunur. Bu mənada tarix və mədəniyyət abidəsi kateqoriyasına aid olan obyektlər insanlarda pozitiv hisslərdən başlamış, dərin kədər duyğusuna qədər emosiyaların geniş spektrini oyatma xassəsinə malikdir.

Muzeallığın digər xassəsi olan attraktivlik abidənin daha çox zahiri görünüşü ilə diqqəti cəlb etmək səbəbidir. Reprezentativlik (təmsil olunma)- obyektin ona bənzər əşyalardan fərqli olaraq xarici aləm hadisələrinin daha dolğun şəkildə əks etdirməsi səbəbidir. Muzeallığın digər xassəsi olan assosiativlik- obyektin assosiasiyalar oyatma səbəbidir. Məhz bu fenomenal xassələr mədəni irs obyektinin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasını şərtləndirməklə muzeyşünaslığın predmetinə çevirir. Bu xassələr istənilən obyektin muzey əhəmiyyətli əşyaya çevrilməsini zəruri edir. Müasir dərketmədə "muzey" anlayışı "qorunma məkanı" anlayışından daha geniş əhatə diapozonu əldə edir. Muzeal struktura malik muzey əhəmiyyətli əşya "tarix və mədəniyyət abidəsi" statusuna transformasiya oluna bilər. Bu fikirdən belə bir nəticə əldə etmək olur ki, "tarix və mədəniyyət abidəsi" muzeyşünaslığın xüsusi və öz əhatə spektrinə görə daha geniş bir fenomenidir.

Bəs, "tarix və mədəniyyət abidəsi", "abidə" nədir, bu ifadə və anlayışın elmi məzmunu necədir? "Tarix və mədəniyyət abidəsi"nin muzeal fenomen kimi interpretasiyası "abidə" anlayışının morfoloji təhlilindən başlayır.

Qədim anlayış olan "abidə" ilə müqayisədə "tarix və mədəniyyət abidəsi" daha müasir ifadədir. "Tarix və mədəniyyət abidəsi" ifadəsi ilk dəfə 1965-ci ildə SSRİ-nin "Tarix və mədəniyyət

abidələrinin qorunması haqqında Qanunu”nda təsbitini tapmışdır. Digər dillərdə “abidə” mənasını verən anlayışların (pamyatnik, monument, anıt, denkmal, bodendenkmal) etimologiyası birbaşa “yaddaş”, “xatirə” fenomeni ilə bağlı olsa da, Azərbaycan dilində eyni mənanı verən ”abidə” anlayışının etimologiyası ərəbcədən “ibadət edən”, “etiqad edən” anlamını verən “abid” sözündən götürülmüşdü[27]. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, istənilən etiqadçı üçün əsas ibadət forması zikrdir. Zikrin ən vacib qaydası isə, allahın yada salınması, xatırlanmasıdır. Böyük Sovet Ensiklopediyasında qeyd olunduğu kimi: *”İbadətin tərkib elementlərinə dini-magik hərəkətlər (dua, zikr) və bunlarla bağlı olan əşyalar (...,məbəd, müqəddəs yerlər və s.) aiddir*”[28].Yadda qalma, xatirə missiyasına xidmət məqsədilə yaradılmış obyektlərin əzəli anlama missiyasına görə “abidə” adlandırılması obyektiv hadisədir. Lakin zaman kontekstində “abidə” anlayışının konkret predmeti ifadə etmə funksiyasından əlavə, semiotik, aksioloji səviyyəsi formalaşmağa başlayır ki, məhz bu arqument muzeyşünaslıq baxımından daha çox diqqəti cəlb edir. Semiotikanın yaradıcıları ABŞ filosofları Ç.S.Pirs və Ç.V.Morrisin İşarə nəzəriyyələri, eləcə də, hər ikisinin semiotik sxemləri ”abid” anlayışının da mətnyaradıcı aspektinin öyrənilməsi baxımından muzeyşünaslıqda təyinedici rol oynayır. Belə ki, Ç.Pirsin tərtib etdiyi semiotik sxemin “referent-reprezentament-interpretant” üçlüyündəki dinamik səciyyəsi ilə seçilən “interpretant” komponentinin özəlliyi işarənin çoxlu miqdarda mənalar yaratması xassəsi ilə bağlıdır. Ç.Pirsin işarə nəzəriyyəsinə istinad edərək Ç.Morris həmin nəzəriyyəni eyni obyektə tuşlanmış işarələrin eyni mənanı verməsinin məcburi olmadığı (desiqnat) mülahizəsi ilə daha da təkmilləşdirdi[29]. Bu mülahizə “abid”in zikr fəaliyyətindəki “xatırlama” aktının yaddaş işarəsi rolunu oynaması ilə yeni bir

---

[27]Ərəb və fars sözləri lüğəti:(Azərbaycan klassik ədəbiyyatını oxumaq üçün)/ hazırlayanlar: B.Abdullayev, H.Zərinzadə–Bakı: Azərb. SSR Elmlər Akademiyasının nəşr, –1966.–s.12.

[28]Советский энциклопедический словарь(4-е издание, исправленное и дополненное) / ред.А.М.Прохоров – Москва: –1990, –с.669.

[29] Моррис, Ч. Основания теории знаков // Семиотика,–Москва: –1983.–с. 37-89.

məfhumun- “abidə”nin təşəkkülünü metodoloji cəhətdən əsaslandırır. Məğzindəki yaddaş, xatirə məna yükü ilə hadisələri, obyektləri daha tutarlı şəkildə ifadə və təzahür etdirmə xassəsindən irəli gələrək “abidə” anlayışı təkamül nəticəsində yaddaşın sosial informasiya daşıyıcısı səviyyəsinə keçid alaraq metoforik əhəmiyyət kəsb etməyə başlamışdır. Dəyərli olanların, məhz “abidə” kimi konstruksiyalaşması, həmçinin bu sözün ritorik cazibəsilə də bağlıdır. Yaddaş mədəniyyəti nəzəriyyəsini təmsil edən konsepsiyalar -“mədəni yaddaş”, “memoriallaşma mədəniyyəti” (Y.Assman), “kollektiv yaddaş” (M.Halbaks), “yaddaş məkanları” (P.Nora), “sosial yaddaş” (B.Miştal), “dünyanın yaddaşı” (A.Mol) özündə sosial-mədəni, tarixi aspektdən dəyərli informasiya potensialı daşıyan obyektlərə “yaddaş paradiqması”ndan yanaşaraq “abidə” (monument, pamyatnik) kimi adlandırılmasını həm elmi-metodoloji, həm də təcrübi baxımdan obyektiv hesab etmişlər. Etimologiyası antik mifologiyaya görə baş allah Zevs və Mnesominin qızları-muzalar, həm də “yaddaş ilahələri” idilər.

Yaddaş mədəniyyəti nəzəriyyəsinin istiqaməti kimi formalaşmış memoriallaşma (əbədiləşdirmə) mədəniyyəti konsepsiyası abidələrə xas olan əbədiyaşarlığın metodoloji cəhətdən əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir. Öz ideya qaynağını “alman tarixi məktəbi”nin nümayəndəsi L. fon Rankenin mənbəşünaslığın dövriyyəsinə daxil etdiyi “əvvəlcədən düşünülümüş” və “əvvəlcədən düşünülməmiş” tarixi məlumatlar ifadəsindən götürmüş düşünülmüş əbədiləşdirmə (kommemorasiya) və düşünülməmiş əbədiləşdirmə konsepsiyası İ.A.Kiryanov, A.M.Kulemzin, E.Mixaylovski tərəfindən abidələrin genezisinə görə “abidə-əsillər”, “abidə-simvollar” kateqoriyasını bildirən konsepsiya ilə müşayiət olundu. Həmin konsepsiyalar bu kateqoriyadan olan obyektlərin muzeyşünaslıq aspektlərini onların dəyərli informasiya mənbəyi olması və bundan çıxış edərək mühafizəyə cəlb olunması amillərində görməyə imkan yaradır. Y.Assmanın “mədəni yaddaş” konsepsiyasında yaddaşın əşyavidən başqa, mimetik (mimetik yaddaş), kommunikativ (kommunikativ yaddaş) üsulla möhkəmləndirilməsinin mümkünlüyü ilə əlaqədar irəli sürdüyü tezis

isə, qeyri-maddi obyektlərin də “abidə” (tarix və mədəniyyət abidəsi) kimi tanınmasını metodoloji baxımdan əsaslandırır.

**“Mədəni dəyər”, “mədəni irs”, “tarix və mədəniyyət abidəsi” anlayışları nisbətinin muzeyşünaslıq kontekstində təhlili”** adlanan ikinci yarımfəsil tarix və mədəniyyət abidəsinin “mədəni irs”, “mədəni dəyər” müstəvisində araşdırılmasına həsr edilmişdir. Yalnız “mədəni irs”, “mədəni dəyər” anlayışlarının müxtəlif elmi və hüquqi aspektlərdə izah və təyinatlarını dəqiqləşdirdikdən sonra “tarix və mədəniyyət abidəsi” fenomeninin əsil mahiyyətini dərk etmək olar. Bu yarımfəsildə müqayisəli təhlil metodu əsasında mədəni irs obyektinin “abidə” kimi konstruksiyalaşmasında dəyər potensialının əsas arqument olduğu sübuta yetirilmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, terminoloji baxımdan “abidə” anlayışının tarixi digər iki anlayışdan daha qədim olsa da, lakin bir fenomen olaraq “tarix və mədəniyyət abidəsi” mədəni irs və mədəni dəyərlərdən törənmişdir (“tarix və mədəniyyət abidəsi” daha müasir anlayışdır!). Bu xassə “tarix və mədəniyyət abidəsi”nin hüquqi statuslu kateqoriya kimi dərkini mümkün edir. “İrs”, “dəyər” anlayışlarından fərqli olaraq “mədəni irs”, “mədəni dəyər” anlayışlarının təşəkkül tarixi faktiki olaraq XX əsrə təsadüf etməklə birbaşa həmin tarixi dövrdə baş vermiş iki dünya müharibəsi ilə bağlıdır. Bu müharibələr zamanı ölkələrdən oğurlanmış, başqa yerlərə daşınmış dəyərli incəsənət, mədəniyyət nümunələrinin öz sahiblərinə qaytarılması məsələləri dünya ictimaiyyatının müəyyən kateqoriyadan olan əşyalara xüsusi münasibətin formalaşdırılması üçün ümumi qaydaların hazırlanmasını zəruri etdi. Bunlar adi məhsul və obyektlərə olan qaydalardan fərqli səciyyə kəsb etdi. Bu zərurət mədəniyyətin daha əhəmiyyətli obyektlərinin adilərdən fərqləndirilməsi məqsədilə “mədəni dəyər”, “mədəni irs” anlayışlarının təşəkkülünə səbəb oldu. Bu sözbirləşmələrinin önündəki “mədəni” predikatını A.V.Şestakov obyektin birbaşa insan amili ilə (əzəldən insan ruhunun məhsulu olması!) bağlı olması ilə yanaşı, bunların *“üzə çıxarılması, hər vasitə ilə qorunması..., ancaq elmi cəhətdən öyrənilməsi və kütləvi nümayişi*

*üçün istifadəsi"* ilə bağlılığında görür[30]. Zaman kontekstində "abidə" sözünün hermenevtik dəyişiklik nəticəsində metaforik cazibə mənasında interpretasiyası xüsusi dəyərə malik olan təkcə maddi obyektlərin deyil, qeyri-maddilərin də bu cür adlandırılmasına başlıca səbəb oldu. Hər hansı bir obyekt abidə kimi qəbul edildikdən sonra, metaforik işarəyə çevrilir. Metodoloji cəhətdən təməli "anlayan hermenevtika"dan təşəkkül tapan "anlayan muzeyşünaslıq" konsepsiyasına görə insanların muzey əhəmiyyətli obyektlərlə təması onların bu obyektləri əhəmiyyət səviyyəsindən asılı olaraq adlandırılması ilə nəticələnir[31]. "Abidə" anlayışının öz ilkin, əzəli məişət səviyyəsindən yeni səviyyəyə transformasiyasında hüquqşünas tədqiqatçıların arqumentləri, bu arqumentlərə istinadən yaradılmış beynəlxalq və regional xarakterli qanunvericilik aktlar tarixi əhəmiyyət kəsb etmişdir. Qeyd olunan mənbələrdə "mədəni irs", "mədəni dəyər", "abidə" fenomenlərinin kulturoloji, hüquqi izahı bunların muzeyşünaslıq kontektsinə də aydınlıq gətirir. Məlum olur ki, əslində bu üç fenomen dəyərləndirmə prosesinin iyerarxik səviyyəsidir. Bir çox tədqiqatçılar kimi A.B. Şuxobodski də mədəni irs - mədəni dəyər - abidə fenomenlərinin differensial transformasiya nəticəsində iyerarxik sistemə yiyələndiyi arqumentini iddia edir[32]. Obyektin "tarix və mədəniyyət abidəsi" statusuna transformasiyası onun əvvəlcə mədəni dəyər, sonra mədəni irs komponenti olması ilə baş tutur. A.B. Şuxobodski "tarix və mədəniyyət abidəsi"nin hüquqi status kontekstini obyektin dəyər potensialına əsasən dərk olunduğunu isbat edir. Mədəni irs obyektinin "tarix və mədəniyyət abidəsi" statusuna keçidi məqsədilə dəyərləndirilməsində obyektin dəyər parametrləri (tarixi, bədii-estetik, ictimai-sosial dəyəri), əsilliyi, unikallığı, orijinallığı; Bəşəri İrs siyahısına salınmasında isə,

---

[30]Шестаков, В.А. Музейный предмет, как класс культурных ценностей//Вестник Волгоградского государственного университета. Серия 7. Философия. Социология и социальные технологии, – 2009. №1(9), - с.80-89.

[31]Миссия музея в ракурсе проблем межкультурной коммуникации. Современные проблемы межкультурных коммуникаций. //сб.статей, СПБ: Изд-во СПБГУКИ, –2010.Вып.4, –с.256-262.

[32]Шухободский, А.Б. Статус памятника истории и культуры в современной России:/ автореферат дис. кандидата философских наук./–Санкт-Петербург, - 2012. –с.12.

“universal dəyər potensialı” muzeyşünaslıq konteksti səviyyəsində dərk olunur. Tədqiqatçı A.A. Mazenkova mədəni irsin strukturunun muzeallıq mahiyyətinə malik gerçəklik nümunələrindən təşkil olunduğunu bildirməklə bunları mədəni irsin əşyavi ləşmiş təzahürü kimi “abidələr”, qeyri-əşyavi irs kimi “ənənə”, mədəni irsin ərazi-tarixi vahidi kimi “mədəni landşaft”, mədəni irsin subyekti kimi “insan”da təzahür tapdığını iddia edir[33]. “Abidə” anlayışının yalnız maddi mədəni irsin kateqoriyası kimi dərki müasir mühafizə prioritetlərində streotip hesab edilməlidir. Bu məsələyə L.A.Klimov, T.S.Kuryanova, P.V.Qluşkovanın müasir muzeyşünaslıq təfəkkür tərzindən yanaşması diqqəti cəlb edir[34]. L.A.Klimov yazır:” *Ümumi halda, “irs” adı altında xüsusilə, tarixi, estetik, memorial, etnoloji və digər bu kimi müstəsna dəyərə malik maddi obyektlərlə yanaşı, lap yaxın vaxtlardan başlayaraq qeyri-maddilər də daxil edilməklə mədəni aləm başa düşülür.*”

Dissertasiyanın bu yarımfəslində mədəni irs və mədəni dəyərlərlə bağlı YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif illərdə qəbul etdiyi sənədlərin diqqətlə araşdırılması, təhlili mədəni irsin zəngin tərkibə malik olduğunu üzə çıxartdı.

Deməli, mədəni dəyər mədəni irsə, tarix və mədəniyyət abidəsi isə, mədəni dəyərlərə nisbətən xüsusiləşmiş fenomendir. Bu xüsusiləşmənin yeganə üsulu seçimdir. Seçim isə, yuxarıda qeyd etdiyimiz kimi, yalnız dəyər meyarlarına görə dəyərləndirmə ilə müəyyənləşir ki, bu da muzeyşünaslıq kontekstinin məzmununu təşkil edir. Hazırkı yarımfəsildə muzey mənbəşünaslığı prinsipləri əsasında “muzey əşyası”, “muzey əhəmiyyətli əşya”, “muzey abidəsi” anlayışlarının nisbətləri araşdırılaraq sonuncunun tarix və mədəniyyət abidəsi kateqoriyasında xüsusi ranqı təmsil etdiyi isbat

---

[33]Мазенкова, А.А. Культурное наследие как самоорганизующаяся система: /автореферат дис. кандидат философских наук./– Тюмень,–2009. – 25 с.

[34]Климов, Л.А. Культурное наследие как система. //Вопросы музеологии. Санкт-Петербургский государственный университет–2011 № 1(3). –с.42-46., Курьянова, Т.С. Музей и нематериальное культурное наследие. //Вестник Томского государственного университета,– 2012. Вып.№ 361, – с.55-57.

Глушкова, П.В. Классификация музеев под открытым небом в аспекте актуализации нематериального наследия // Вестник Кемеровского государственного университета, Кемерова:– 2015. Вып 1-1 (61), –с.59-63.

olundu. Deməli, daha əhəmiyyətli mədəni dəyərlər tarix və mədəniyyət abidəsi qismində mühafizə olunur. Qorunma, mühafizə-informasiyanın uzun müddətə saxlanılma fazalarıdır[35]. Beləliklə, bu yarımfəsildə "tarix və mədəniyyət abidəsi" fenomeninin "mədəni irs", "mədəni dəyər" müstəvilərində aparılan təhlilləri birincinin hüquqi statusa malik fenomen olduğunu sübuta yetirir.

Dissertasiyanın II fəsli **"Tarix və mədəniyyət abidələrinin tipologiyası"** adlanır. Bu fəsildə tarix və mədəniyyət abidələrinin tip və növlər üzrə təsnifatları tərtib edilmiş, ayrı-ayrılıqda "tarix abidəsi", "mədəniyyət abidəsi" fenomenləri tədqiqata cəlb olunmuşdur. **"Tarix və mədəniyyət abidələrinin təsnifatı"** adlanan birinci yarımfəsildə müasir tarixin müxtəlif çağlarında abidələrin tərtib olunmuş təsnifat prinsipləri araşdırılaraq təhlil edilmişdir. Tarixin axarında abidələrin mühafizəyə cəlb olunma ehtiyacı yüksəldikcə onların təsnifatı məsələsi aktuallıq kəsb etməyə başlayır. Bu istiqamətdə ilk addım kimi İsveç Dövlət Şurasının 28 noyabr 1666-cı il tarixli Qanununda qədim abidələrə daşınmazlıq prinsipindən yanaşmanı göstərmək olar [36]. XVIII əsrin axırları – XIX əsrin I yarısında qədim abidələrin mühafizə məsələsi Danimarka, Fransa, Belçika, Prussiya, Saksoniya kimi bir çox Avropa ölkələrində dövlət səviyyəsində baxılmağa başlamaqla onların təsnifat məsələsini də aktuallaşdırırdı. 1793-cü ildə Fransa burjua inqilabı ərzində Milli Konventin abidələri incəsənət və maarif abidələri təsnifatına bölgüsü bu istiqamətdə həyata keçirilən ilk tarixi addımlardandır. Bir qədər sonralar –XIX əsrin sonunda abidələr haqqında məsələ Böyük Britaniya və ABŞ-da hərtərəfli şəkildə baxıldı[37]. Araşdırmalar ilkin təsnifat nümunələrinin siyahı şəklində

---

[35]Социологический энциклопедический. словарьна русском, английском, немецком, францзуком и чешком языках./ред. Г.В.Осипов: ред. сост. З.Т.Галенкова, Л.П.Костамахина, А.Кречман [и др.]. Ин-т социально-политических исследований Российской АН, Ин-т социологии Рос. АН– Москва: ИНФРА, М-НОРМА,–1998. –с.328.

[36]Оттенсон, А. Памятники культуры во все времена были объектом охраны государства // Советское право, –Таллин: –1985. № 3. –с. 192-200.

[37]Домрин, А. Н. Охрана памятников истории и культуры в Великобритании // Правовая охрана памятников истории и культуры в зарубежных странах: сб.

səciyyə kəsb etdiyini üzə çıxartdı. Xüsusiə, XX əsrin əvvəllərində tərtib olunmuş siyahılarda tarix və mədəniyyət abidələrinin keçmiş sələfləri "inqilab nailiyyətləri abidələri", "incəsənət abidələri", "qədim abidələr", "təbiət abidələri" kimi qeydə alındığı faktları təsdiqini tapmışdı. Bu illərdə "mədəni dəyərlər" anlayışının dövriyyəyə cəlb olunması "mədəniyyət abidəsi" anlayışının formalaşmasına səbəb olmuşdur. Əgər 1930-cu illərdə abidələrin hamısı, demək olar ki, tarix kateqoriyasına aid edilirdisə, 1940-cı illərdə abidələrin bir çox növü "mədəniyyət abidəsi" kateqoriyasına şamil edilməyə başladı. Abidələrin qorunması ilə bağlı SSRİ, Azərbaycan SSR-nin qəbul etdiyi 1948-ci il Qanununda bu fenomen "mədəniyyət abidəsi", 1965-ci il Qanununda isə, "tarix və mədəniyyət abidəsi" kimi təqdim olundu. "Tarix və mədəniyyət abidəsi" ifadəsinin qətiləşdirilməsinə təkan verən əsas amil ölkədə abidələrin mühafizəsi üzrə könüllü cəmiyyətlərin geniş vüsəti faktı idi. Bu yeni model "abidə" fenomeninin tarixi təkamülünün nəticəsi kimi qiymətləndirilərək onun əhatə diapozonunun genişləndirilməsinə əhəmiyyətli şəkildə təsir göstərdi. "Tarix və mədəniyyət abidəsi" anlayışı, cəmiyyətdə, xüsusilə də, qanunvericilik bazasında təsdiqini tapdıqca, onun əhatə dairəsinə yeni-yeni kateqoriyadan olan obyektlər daxil edilməyə başlayır, bu proses isə, təsnifatların işlənilməsini günü-gündən aktuallaşdırırdı. Bu yarımfəsildə sovet, postsovet respublikaları (RSFSR, Arxangelk vilayəti, Ukrayna), müstəqil Azərbaycan, və xarici ölkələrin (ABŞ, Fransa, İtaliya) abidələrin mühafizəsi ilə bağlı qanunveticilik aktlarının müqayisəli təhlilləri tarix və mədəniyyət abidələrinin dəqiq və vahid prinsiplər əsasında təsnifatların olmaması faktını üzə çıxartmaqla yanaşı, bütün qanunvericilik sənədləri üçün səciyyəvi olan bir cəhəti də aşkarladı: bu qanunların heç birində tarix və mədəniyyət abidəsinin (sadəcə olaraq abidənin) elmi və praktiki

---

науч. трудов / РАН. ИНИОН, Институт законодательства и сравнительного правоведения при Правительстве РФ, –Москва:–2005. –с.25-30., Домрин, А. Н. Законодательство США об охране памятников национального значения // Правовая охрана памятников истории и культуры в зарубежных странах: сб. науч. тр. / РАН. ИНИОН, Институт законодательства и сравнительного правоведения при Правительстве РФ,– Москва:– 2005. –с.119-123.

kontekstdə əsaslandırılmış tərifi mövcud deyildir. Bu yarımfəsildə "tarix və mədəniyyət abidəsi"nin təqdim olunmuş yeni tərifi dissertasiyanın elmi yeniliklərindəndir: tarix və mədəniyyət abidələri – zəngin tarixi-mədəni irs məcmuusundan yüksək dəyər səviyyələrinə görə dövlət tərəfindən mühafizə məqsədilə seçilmiş xüsusi statuslu maddi və qeyri-maddi obyektlərdir. Bu tərif lakonikliyi ilə muzeyşünaslıq aspektindən əlverişli variantdır. Belə ki, tərifin ifadə nizamını mədəni irs, mədəni dəyər, tarix və mədəniyyət abidəsi fenomenlərinin biri-birindən məntiqi bağlılığını qabardır. Qeyri-maddi dəyərlərin də tarix və mədəniyyət abidəsi statusunda dərki hazırkı tərifin əvvəlkilərdən fərqli xüsusiyyətlərindəndir. Ölkə və beynəlxalq qanunvericilik sənədlərində boşluqları görən bir çox tədqiqatçılar tarix və mədəniyyət abidələrinin mənşə (S.Şestova)[38], sistematik, qnoseoloji, qanunvericilik meyarlarına əsasən təsnifatlarını tərtib etmişlər (A.Kulemzin)[39]. Bu yarımfəsildə mədəni irs təsnifatı prinsiplərinə uyğun tərtib edilən tarix və mədəniyyət abidələrinin sistematik təsnifatı dissertasiyanın elmi yeniliklərindəndir.

Sistematik təsnifat bölgüsü üçün abidələrin funksional təyinatı, əzəli sahəvi (elmi) istiqaməti (A.Kulemzinin tərtib etdiyi təsnifat kimi); tipoloji bölgü üçün isə, daxili və zahiri struktur əlamətləri (əşyavi, təsviri, fono, yazılı, foto, kino), yaxud da maddi, qeyri-maddi, daşınar və daşınmaz kimi dixotomik xassələr başlıca prinsip sayılır. Təsnifatların muzeyşünaslıq əhəmiyyəti bunların muzey mənbəşünaslığı metodologiyası prinsipləri (abidənin informativliyi, ekspressivliyi, attraktivliyi, reprezentativliyi) əsasında tərtib olunması ilə izah olunur.

II fəslin ikinci yarımfəsli **" "Tarix abidəsi" və "mədəniyyət abidəsi" anlayışlarının nisbəti"** adlanır. Bu yarımfəsildə hər iki fenomen ayrı-ayrılıqda muzeyşünaslıq kontekstində tədqiq olunaraq nisbi fərqləri və ümumi cəhətləri qabardılır. Əslində, "abidə"

---

[38] Шестова, С.М. Историко-культурологический анализ нормативного регулирования охраны и использования памятников истории и культуры в России: /дис. кандидата культурологии./ –Санкт-Петербург, 2009. –160 с.
[39] Кулемзин, А.М. Методика сохранения и использования памятников истории и культуры. Учебное пособие. Кемерово:КемГУКИ,– 2009,– 107 с.

statusuna yiyələnmiş hər hansı bir mədəni irs nümunəsində həm tarix, həm də mədəniyyət elementləri kompleks şəklindədir. Amma bu eyni ictimai hadisədən bəhs edildiyi təsəvvürünü də yaratmamalıdır. Təhlillərin nəticələri bu və ya digər abidənin tarix, yoxsa mədəniyyət sahəsinə mənsubluğunu ona hansı kontekstdən yanaşmadan asılı olduğunu qabardır. Bu məsələnin həllində tədqiqatçı L.V.Molodkina alman filosofu E. Qusserlinin fenomenoloji nəzəriyyəsindən irəli gələn müddəaların tətbiqini məqsədəuyğun sayır. Tədqiqatçı memarlıq-təbiət nümunəsində mədəni irs obyektinin abidə kimi dərkində şüurdakı məqsədləri (ustanovka) dəyişməyə yönəlmiş reduksiyadan istifadənin əhəmiyyətinə xüsusi yer verir. Yaddaş fenomenləri və abidə anlayışını qusserlicəsinə əlaqələndirən L.V.Molodkina belə bir nəticə çıxarır: "*Abidənin mənası hansısa bir məqamda ...əşyanın görmək istədiyimiz fenomeni özündə daşımasındadır. Sonradan özünəməxsus yenidənyaradılış, şüurun reaktivləşmə vasitələri ilə abidənin məna qatlarının aktuallaşması baş verir*"[40]. Deməli, abidənin tarix, yaxud mədəniyyət kateqoriyasına aidiyyatının müəyyənləşməsində bunlara hansı kontekstdən yanaşma bucağı da müstəsna əhəmiyyət daşıyır. Bu prosesdə muzey interpretasiyası əsas metodoloji üsuldur. S.Pirsin fikrincə, interpretasiya *"vahid tamlıq təşkil edən əşyadakı müxtəlif xassələrin cəminin dərk olunmasıdır*"[41]. "Tarix və mədəniyyət abidəsi" istilahı imperativ (qeyri-şərtsiz) səciyyə daşımır və daşımamalıdır. "Abidə" sözünün önündəki "tarix", "tarixi", "mədəniyyət" və "mədəni" predikatlarının əlavə edilməsi bu fenomenlərinin hər birinin məna kontekstləri ilə bağlıdır. Muzeyşünaslıqda hər bir anlayışın təyinatının dəqiqləşdirilməsi baxımından təməl anlayışları kimi "tarix abidəsi", "mədəniyyət abidəsi"nin morfoloji təhlilinə böyük ehtiyac duyulur. Müqayisəli təhlillər əsasında aparılan araşdırmalar bu anlayışların köklü şəkildə biri-birindən fərqlənmədiyini, fərqlərin yalnız nisbi

---

[40] Молодкина, А.В. К вопросу о феноменологии памяти (на примере архитектурно-природного памятника)// Вестник Московского университета. Серия 7: Философия, – 2007. №6, – с.94

[41] Беззубова,О.В. Некоторые аспекты теоретического осмысления музея, как феномена культуры//Триумф музея? Санкт-Петербург: – 2005.– с.15.

səciyyə kəsb etdiyini üzə çıxartdı. Görkəmli arxeoloq L.S.Kleyn abidələri ayrı-ayrılıqda həm tarix, həm də mədəniyyət hadisəsinin təzahürü kimi əsaslandırmaqla yanaşı, buna müvafiq təsnifatın tərtibini də elmi cəhətdən obyektiv sayaraq yazırdı: ”*Əgər obyektlərin əvvəlki mədəniyyətlə əlaqəsi üçün əşyanın funksional təyinatı daha çox əhəmiyyət kəsb edirdisə, əşyanın müasir hadisələrə hazırlanmasının mədəni-tarixi rolunun müəyyənləşdirilməsi üçün onun genetik əlaqələri, mədəni-tarixi prosesdəki yeri, mədəni mənsubiyyəti daha böyük əhəmiyyət kəsb edir. Bu aspektdə yaddaş öz konkretliyinə görə daha güclüdür, obyektlər hansısa tarix, məkan və mədəniyyəti xatırladır....”*[42]. Bu zərurətdən irəli gələrək hazırkı yarımfəsildə əvvəlcə, “tarix abidəsi” və “tarixi abidə” fenomenlərinin muzey mənbəşünaslığı kontekstində təhlili bu fenomenlərin (eləcə də mədəniyyət abidələri) dərketmənin xüsusi növ mənbə, muzey kommunikasiyası sisteminin əsas elementləri olduğunu üzə çıxartdı. Tədqiqatçılar S.O.Şmidt, V.L.Yeqorov, L.İ.Zozulya, İ.O.Kravçenko, A.Qriffen[43] “tarix abidəsi”, “tarixi abidə” fenomenləri üçün tarixi mənbə konseptinin əsas arqument olduğunu isbat etməklə muzeyşünaslıq aspektlərinə aydınlıq gətirmişlər. Dəyərli informasiyanın muzey əhəmiyyətli obyekt üçün əsas xassə olması prinsipi özündə “tarixi hadisə”, “tarix faktı”, “fakt-mənbə”, “fakt-informasiya” komponentlərini cəm edən “tarix

---

[42] Клейн, Л.С. Археологические источники. Учебное пособие. / Л.С.Клейн.– Ленинград: Изд-во Ленинградского университета, –1978. –с.88.

[43] Шмидт, С.О. О критериях оценки исторических памятников //Вопросы научного атеизма –Москва: Изд-во «Мысль», –1976. Вып.20, – с.88-103., Егоров, В.Л. Развитие и становление понятия «памятник истории» // История СССР. – Москва: –1988. –№ 1, –с. 100 - 106., Зозуля, Л.И. Понятие «исторический памятник» в России в XIX - начале XX века // Вопросы охраны и использования памятников истории и культуры / Труды НИИ Культуры, Москва:–1992. –с.160 -171., Кравченко, И.Г.**Памятник** как социальный феномен: /автореферат дис.кандидата философских наук./–Волгоград, 2008,–121 с., Гриффен, Л.А. Памятники истории или памятники культуры? В кн: Теоретические основания памятниковедения. Киев: Центр пам’яткознавства НАН України і УТОПІК, – 2012. – 145 с./автореферат дис.кандидата философских наук./–Волгоград, 2008,–121 с., Гриффен, Л.А. Памятники истории или памятники культуры? В кн: Теоретические основания памятниковедения. Киев: Центр пам’яткознавства НАН України і УТОПІК, – 2012. – 145 с.

abidəsi”nin muzeyşünaslıq konseptini qabardır. Bu yarımfəsildə həmin komponentlərin hər birinin substrat olaraq tarix abidəsi fenomeninin fomalaşmasındakı əhəmiyyəti tədqiq olunur. Bu yarımfəsildə “tarixi abidə” ilə “tarix abidəsi” fenomenlərinin nisbətinə də diqqət yetirilmişdir. “Tarix abidəsi” həmin abidənin təyinat sahəsini, faktikliyini, tarixi sənədliliyini bildirdiyi halda, “tarixi abidə” həmin abidənin cəmiyyət üçün əhəmiyyət və əlamətdarlığını bildirir. Tarix abidələrinin aşağıdakı sistematik və tipoloji təsnifatı tarix və muzey mənbəşünaslığının mənbələrin təsnifat metodologiyası prinsipləri əsasında tərtib olunaraq yarımfəslin elmi yeniliklərindəndir.

| Sistematik təsnifat | Tipoloji təsnifat |
|---|---|
| 1.Elm, istehsalat və texnologiya tarixi üzrə abidələr; | 1. Əşyavi tarix abidələri; |
| 2. Xalq və millətlərin tarixi üzrə abidələr; | 2. Təsviri tarix abidələri; |
| 3. Dövlətlərin tarixi ilə bağlı abidələr; | 3. Konvensional tarix abidələri: |
| 4. Müharibələr tarixi ilə bağlı abidələr; | 4. Səsli və audial abidələr; |
| 5. Tarixi şəxsiyyətlərlə bağlı abidələr; | 5. Şifahi tarix abidələri; |
| 6. Mədəniyyət və incəsənət tarixi üzrə abidələr; | 6. Davranış tarix abidələri; |
| 7. İctimai-siyasi hadisələrlə bağlı abidələr; | |

Mədəni irs, mədəni dəyər, mədəni mülkiyyətlə bağlı beynəlxalq və ölkə qanunvericiliklərinin müqayisəli şəkildə aparılmış araşdırmaları “mədəniyyət abidəsi”nin təyinatının dəqiqləşdirilməsinə kömək etdi. Mədəniyyətin hər hansı bir əşyası, istər əmək aləti, elm, texnika, bilik, yaxud da incəsənət əsəri, istərsə də davranış normaları, ilk növbədə, insanın maddi və mənəvi zəhmətinin məhsuludur. Bu məntiqdən irəli gələrək hazırkı yarımfəsildə “mədəniyyət abidəsi” fenomeninin “mədəniyyət”, “artefakt” fenomenləri nisbətində araşdırılmasına üstünlük verilmişdir. “Mədəniyyət abidəsi”ndə “mədəniyyət faktı” kateqoriyası başlıca meyar sayılır. Tədqiqatçı Y.V.Rojdestvenskinin fərziyyəsinə görə, mədəniyyətşünaslıq “*özündə hər hansı faktı deyil, presedent (yəni, nümunə ola biləcək) fakt”*lardan təşkil olunan “mədəniyyət faktları” ilə məşğul olur. Bu kimi faktlar

özündə mədəni əhəmiyyəti əks etdirərək özlərinin məxsusi xronotopuna malikdirlər[44].

Hazırkı yarımfəsildə mədəniyyət abidəsinin tipologiyasını əks etdirən sistematik təsnifat da muzey mənbəşünaslığının metodoloji prinsipləri əsasında tərtib edilmişdir.

1. İncəsənət abidələri;
2. Elm abidələri;
3. Təhsil abidələri;
4. Dini abidələr;
5. Dil abidələri;

Dissertasiyanın III fəsli **“Tarix və mədəniyyət abidələrinin dəyərləndirmə subyektləri”** adlanır. Bu fəsildə obyektin dəyər potensialı tarix və mədəniyyət abidəsi statusuna transformasiyasının mühüm meyarı kimi muzeyşünaslıq kontekstində tədqiq olunur. Muzey aksiologiyası, muzey interpretasiyasının predmetini təşkil edən dəyərləndirmə aktı muzeal hadisə olmaqla, mədəni irs obyektlərinin abidə statusunu müəyyənləşdirir. **“Dəyərləndirmə- “tarix və mədəniyyət abidəsi” statusunu müəyyənləşdirən akt kimi”** adlanan birinci yarımfəsildə “dəyər” anlayışının digər konteksti tədqiq olunmuşdur. Dəyərləndirmə, həm də muzeal aktdır. Dəyərləndirmə aktının mühüm missiyası mədəni irs obyektinin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasını təmin etməkdir. Muzeyliyin kulturoloji nəzəriyyəsini tədqiq etmiş O.S.Sapanja bu fərziyyəni nəzəri cəhətdən əsaslandıraraq muzeallaşmanı subyekt tərəfindən muzey əhəmiyyətli obyektin potensial muzey dəyərinin üzə çıxarılması prosesi kimi isbat edir[45]. O.S.Sapanjanın “muzeallaşma” haqqındakı mülahizəsinin dəyərləndirmə aktı kimi ekstrapolyarlaşdırılması elmi cəhətdən obyektiv sayılır. Beləliklə, dəyərə malik obyektin özü onu qiymətləndirəcək subyektdən asılı olmadan mövcud olsa da, yalnız insanın müdaxiləsi, interpretasiyası ilə müəyyən olunur. Abidələri sosial fenomen kontekstində tədqiq edən İ.Q.Kravçenko dəyərləndirmə prosesinin aparıcı roluna

[44] Рождественский, Ю.В. Введение в культуроведение /Ю.В.Рождественский. –Москва:ЧеРо,– 1996. –с. 13.

[45]Сапанжа, О.С. Культурологическая теория музейности: / автореферат дис. доктор культурологии./–Санкт- Петербург, –.2011. –58 с.

mühüm yer verərək yazır: "*Artefakt və ya mətn yalnız subyekt tərəfindən dəyərləndirildikdən sonra abidəyə çevrilir, bununla subyekt üçün abidədə cəmlənmiş emosional-dəyər informasiyasının nə qədər vacib olması qənaətinə gəlmək olar*"[46]. Muzeyşünaslığın "muzey kommunikasiyası", "muzey aksiologiyası", "muzey interpretasiyası", "muzey ekspertizası" kimi sahələri, məhz bu zərurətdən irəli gələrək formalaşmışdır. Bu sahələr mədəni irs obyektlərinin tarix və mədəniyyət abidəsinə seçim-dəyərləndirmə prosesini reallaşdırır. Hazırkı fəsildə abidələrin dəyəri bu istiqamətlər müstəvisində tədqiq olunmuşdur.

Muzey aksiologiyasının prinsiplərinə görə obyektin "abidə" statusunda tanınması üçün onun dəyəri hələ təbii və sosial mühitin tərkib hissəsi olduğu zaman mütəxəssis tərəfindən ona verilən ilkin dəyərləndirmə prosesində məlum olmalıdır. Tarix və mədəniyyət abidələri struktur (tekstual) və kontekstual səciyyəli mənalara əsasən interpretasiya olunaraq dəyərləndirilir. Struktur (tekstual) səciyyə obyektin malik olduğu real "mətn"idir. Kontekstual səciyyə obyektin simvolik və digər məna çalarlarının interpretasiyasıdır. Mövcud olduğu mühitdə obyektin dəyəri hələ "abidə" olmamışdan öncə, bir qayda olaraq funksional əhəmiyyəti, yəni yerinə yetirdiyi funksiyalarla ölçülür. Hətta funksional əhəmiyyətini itirən obyekt yaradıldığı dövrün xüsusiyyətlərini özündə təzahür etdirdiyinə görə, tarixi-mədəni, sosial əhəmiyyəti daşımış olur. Aparılan təhlillər tarix və mədəniyyət abidələrinin dəyərləndirilməsinin muzey interpretasiyasının sahəvi istiqamətlərindən olduğunu sübuta yetirdi. Dəyərləndirmə - spesifik fəaliyyət sahəsi kimi obyektin dəyər meyarlarının üzə çıxarılması və ekspertizasını reallaşdırır. Dəyəri müəyyənləşdirilməyən heç bir obyekti "tarix və mədəniyyət abidəsi" hesab etmək mümkün deyil.

**"Abidələrin tarixi dəyərinin muzeyşünaslıq kontekstdə təhlili"** adlı yarımfəsildə ilk dəfə "tarix və mədəniyyət abidəsi"nə iddialı olan mədəni irs obyektlərinin dəyər meyarları müəyyən olunmuşdur. Differensiallıq prinsipi tətbiq edilməklə bunlar iki növə- birincisi, bütün obyektlər üçün zəruru sayılan dəyər meyarları

---

[46] Кравченко, И.Г. Памятник как социальный феномен: /автореfеат дис. кандидата философских наук./– Волгоград, –2008. –с.18.

və ikincisi, obyektin öz funksional spesifikasını əhatə edən dəyər meyarlarına təsnif olunmuşdur. Ümumi dəyərlər kimi qiymətləndirilən birinci növə: mədəni irs obyektlətinin tarixi, ictimai-sosial dəyər ikincisinə isə, mədəni irs obyektinin funksional spesifikasından çıxış edən bədii-estetik dəyər meyarları aiddir..

Bu yarımfəsildə tarixi dəyər aspekti kimi yaş xronologiyasınının mahiyyəti "tarixi hadisənin əhəmiyyətinin mənalandırılması" baxımından tədqiq olunur. Tarixi, bədii, elmi, texniki nailiyyətlərin əsil obyektiv dəyərini ictimai təcrübə verir. Tarixi dəyər kateqoriyasında yaş aspektini aktuallaşdıran ən başlıca motiv mövcud obyektin daşıdığı informasiyanın zaman-məkan çərçivəsində öz əsilliyini, unikallığını, həqiqiliyini, orijinallığını nəinki saxlamaq, onu daha da "cilalaması"dır. Bu problemin həlli ilə bağlı aparılan müqayisəli təhlillər obyektin abidə statusuna transformasiyası üçün 50 illik yaş səviyyəsinin optimallığını məcburi hesab edir. Zaman obyektin abidə kimi əbədiyaşarlığa məhkumluğunu müəyynləşdirən kateqoriyadır.

Abidənin tarixi dəyərinin digər aspekti informativlikdir: "tarixi hadisə", "tarixi fakt", "tarixi gerçəklik" həmin informativliyin əsas konseptləridir. Bu konseptlərin məzmununu informasiyanın mötəbərliyi, dürüstlüyü, həqiqiliyi təşkil etməsi abidələrin ilkin mənbə statusunda tanınmasını zəruri edir. Tarixi dəyərin muzeal yükü də, məhz bu amillərlə ölçülərək abidənin əsliliyini, unikallığını, orijinallığını təzahür etdirir. Bu xüsusiyyətlər muzey aksiologiyası, muzey kommunikasiyası, muzey mənbəşünaslığının metodoloji prinsipləri əsasında təhlil olunur. Tarix və mədəniyyət abidələrinin genezisini abidə-əsillər və abidə-simvollar ideyası ilə əlaqələndirənlərin (İ.A.Kiryanov, A.M.Kulemzin, İ.Mixaylovski) başlıca arqumentləri informasiyanın, məhz mötəbərlik, dəqiqlik kimi meyarlara istinad etməsi ilə bağlıdır. Tarixi hadisənin gedişatında "qabaqcadan düşünülməmiş" (İ.Mixaylovski) şəkildə yaranmış "abidə-əsillər" (əlamətdar və memorial məkanlar, salnamələr, yaradıcılığın inkişaf dinamikasında insanın yaratdıqları) "*tarixi hadisələr nəticəsində baş vermiş və özündə bunların təsirini*

*daşıyan obyektlər"*dir[47]. İnformasiyanın mötəbərliyi, dürüstlüyünə yanaşma tərzinə görə "abidə-simvollar"a münasibət birmənalı deyil: məsələn, abidəşünas A.M.Kulemzin "abidə-simvollar"ı tarixi yaddaє roluna iddia edə bilməyəcəyi mьhakiməsini irəli sьrьr. Зьnki "abidə-simvollar"эn əsas məqsədi həqiqi məqsəddən uzaq olub, onu yaradan sənətkar və sifariєзinin hadisəyə dьєьnьlmьє єəkildə mьnasibəti bildirmək təєkil edir. Tarix və mədəniyyət abidələrini "abidə-əsillər" və "abidə-simvollar" fonunda araюdэran O.V.Qalkova isə, istənilən abidənin цz dцvrьnьn ideologiyasэnэn daюэyэcэsэ olmasэ faktэnэ tarixi mцtəbərliyin gцstəricisi kimi dəyərləndirir: "*Abidə-simvollar və abidə-əsillər eyni dərəcədə ideoloji mahiyyətdən məhrum deyillər. Эstənilən abidə цz dцvrьnьn, ona mьasir olan dьnyagцrьєьn, mentalitetin simvoludur*".[48]

Hazırkı yarımfəsildə tarix və mədəniyyət abidəsinin əsillik, orijinalıq, unikallıq kimi muzeal dəyər üçlüyü tarixi mötəbərlik, dürüstlük, həqiqilik müstəvisində araşdırılmış, üçlüyün hər bir komponentinin tarixi dəyərlikdəki aspektləri üzə çıxarılmışdır. Bununla belə, aparılan araşdırmalar əsillik, orijinallıq, unikallığın abidənin, təkcə tarixi dəyərliyi deyil, bütün digər dəyər səviyyələri üçün əsas meyar olduğunu sübuta yetirmişdi. Əsliliyin tarixi kontekstini "abidə" statusuna yiyələn obyektlərin əzəldən məxsus oldupu keyfiyyət və xassələri təєkil edir. 1994-cь ildə Yaponiyada YUNESKO -un keзirtdiyi konfransda tərtib etdiyi "Əsillik haqqэnda Nara sənədi"ndə abidənin əsilliyinin bцyьk sayda informasiya mənbələrində təzahьr tapmasэ mьddəasэ təsdiqini tapmэюdər. Bu yarэmfəsildə fakturasэna gцrə mьxtəlif nцvdən olan abidələrin zaman kontekstində kəmiyyət və keyfiyyət dəyiєikliklərinə (təbii hal kimi paxэrlarэn, zədələrin, lay təbəqələri, səs-kьylərin yaranmasэ) tarixi əslilik gцstəricisi kimi yanaюэlmaqla muzeylilik əhəmiyyəti

[47]Кулемзин, А.М. Охрана памятников России как историко-культурное явление: / дис. доктора культурологических наук./ –Томск, –2001.– с.83-84.
[48] Галкова, О.В. Понятие «Памятник культуры»:современные подходы в интерпретации. // Вестник МГУКИ. - 2009. № 2. - с. 182-187.

ьzə зэхarэlэr. Bunlar eksperssivlik, attraktivlik, assosiativlik kimi muzeal təzahьr xassələridir.

Цzьndə tarixi mцtəbərliyi daюэyan abidələrdə dəyər aspekti kimi orijinallэрэn цzьnəməxsus yeri vardэr. Orijinallэq-təkrarolunmazlэq, novatorlupun təzahьrь olmaqla eyni zamanda tarixi hadisə kimi dəyərləndirilir. Bu konteksti gücləndirən başlıca amil ifa texnologiyaındakı icra mexanizmidir. Orijinallığın tarixi dəyər aspekti olması zərurəti, ilk növbədə bu amillə izah olunur. Öz xüsusiyyətlərinə görə son dərəcə "nadir olan", "vahid olan" mənasını verən "unikallıq" da "abidə" statusu əldə edəcək obyekt və hadisələr üçün zəruri dəyər aspektidir.

Bu fəslin **"Tarix və mədəniyyət abidələrinin bədii-estetik dəyəri"** `adlı üçüncü yarımfəsildə incəsənət abidələrinin bədii və estetik dəyər anlayışlarının ayrı-ayrılıqda elmi təhlili aparılmış, fərqli, oxşar və ümumi cəhətləri üzə çıxarılaraq muzeal səviyyələri dəyərləndirilmişdir. YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında", "Qeyri-maddi irsin qorunması haqqında" Konvensiyalarında "şah əsər" fenomeni yüksək dəyər meyarlarına malik mədəni irs kateqoriyası kimi təqdim olunur. Bəşəri İrs Siyahısına namizəd olan obyekt ilk növbədə insan yaradıcı dühasının şahəsəri olmalıdır. Yüksək dəyərə malik qeyri-maddi mədəni irs obyektlərinin şahəsər kimi təqdimi bu kateqoriyanın tarix və mədəniyyət abidəsi fenomeninin formalaşmasındakı çevikliyini qabardır. Bu nöqteyi-nəzərdən hazırkı yarımfəsildə incəsənət abidəsi "şah əsər" paradiqmasında da təhlilə cəlb olunur. Q.V.F.Hegelin şah əsərlərin nümunəvilik səciyyəsi ilə bağlı mülahizəsi bunların tarix və mədəniyyət abidəsinə transformasiyasının muzeyşünaslıq kontekstlərinin müəyyənləşməsinə əhəmiyyətli dərəcədə kömək edir. Filosofa görə şah əsərlərin kamilliyi və əzəməti ruha, mənəviyyata heç vaxt təsirini itirə bilməyəcək qida verir, zövqü cilalayır[49]. Məhz bu xüsusiyyət, şah əsərlərin gələcək nəsillər üçün qorunub-saxlanılmasını aktuallaşdırır. Görkəmli alman filosofları İ. Kant, V. Qumbolt, G.V.F. Hegel, F. V. Y Şellinq ali bədiilik haqqındakı nəzəriyyələrində şah əsərlərin əbədiyaşarlıq xassəyə

[49] Гегель, Г.В.Ф. Лекции по эстетике:[в 2 томах]/Г.В.Ф. Гегель,–Санкт-Петербург: Наука,– т.1,–1999.–с 232.

malik olması mülahizələrini irəli sürməklə bunun yalnız düha, dahilərə xas əlamət olduğunu sübut edirlər[50]. Dühalığın allaha xas əlamət kimi əbədiyaşarlığından bəhs edən F.V.Şellinq onların yaratdıqlarının da daimi, əbədiyaşar olması arqumentini iddia etməklə şah əsərlərin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasını, həm də metodoloji cəhətdən əsaslandırılmasına imkan yaradır. Bununla bağlı o, yazır: "*İlahi hasiletmə əbədidir, daha doğrusu, zamana dəxli olmayan, özünütəsdiqlədən aktdır...*"[51]. Filosofun ilahi paradiqmasında dərk olunan dahinin yaratdığı hər bir sənət nümunəsinin şəksiz surətdə əbədiyaşarlığı mühakiməsi diqqəti cəlb edir. Bu mühakimə tarix və mədəniyyət abidəsi statusunun əsas əlamətlərindən biri sayılmalıdır. Çünki bu statusa transformasiya olunmuş dəyərlərin mühafizə edilməsi, elə onların əbədiyaşarlığının təminatçısıdır. İncəsənət əsərlərinin bədii-estetik dəyəri onların ideya-bədii məzmunu, forma, təsviri ifadə vasitələrinin sənətkarlıq səviyyələri ilə izah edilir. Bu yarımfəsildə incəsənətin memarlıq, heykəltaraşlıq, musiqi əsərlərinin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasında bədii-estetik dəyərinin məzmunu muzeyşünaslıq kontekstində tədqiq olunaraq bu dəyər parametrinin muzeal dəyərin tərkib hissəsi olduğunu sübut etdi. Bədii-estetik dəyərin muzeallığı tarix və mədəniyyət abidəsində cəmlənən informativlikdə, bu informasiyanın insanı həyəcanlandıran ekspressivlik, attraktivlik, assosiativlikdə, orijinallıq, unikallıq, əsillik xassələrində təzahür tapır.

III fəslin dördüncü yarımfəsli **"Tarix və mədəniyyət abidələrinin ictimai-sosial dəyəri"** adlanır. Tarix və mədəniyyət abidələrinin ictimai-sosial dəyərinin araşdırılması probleminin əsas çıxış nöqtəsini "cəmiyyət-abidə" nisbətində öyrənilməsi təşkil edir. İstənilən əşya mövcud olduğu tarixi gerçəkliyin bir parçası olduğundan özündə həmin gerçəkliyin müəyyən səciyyə və xassələrini daşıyır. Əşyanın ictimai-sosial əhəmiyyəti bundan

[50] Гамидов, О.М. Немецкая классическая эстетика о художественности(Кант, Гумбольдт, Жан Поль Рихтер, Шеллинг, Гегель)Учебное пособие. / О.М.Гамидов.– Ваку: ПЦ. Анкор, –2000.–100 с.
[51] Шеллинг, Ф.В..Философия искусства /Ф.В.Шеллинг. Москва: Изд-во социально-экономической литературы, Мысль, –1966. – с.162.

ibarətdir. Tarixə çevrilmiş bu gerçəklik öz "iz"lərini maddi və qeyri-maddi obyektlərdə saxlayır, öz utilitar əhəmiyyətini itirmiş bu obyektlərin ictimai əhəmiyyəti əsas dəyər meyarına çevrilir. Tarix və mədəniyyət abidələrini sosial fenomen kimi dəyərləndirən V.İ.Batov bu fenomenin ictimai dəyərini onun sosiogenez gerçəklik formalarından biri olması, yəni əzəldən ictimai məzmuna malik olması faktı ilə arqumentləşdirir[52]. Belə ki, abidə kimi tanınan obyektlər bəşəriyyətin təşəkkülü, inkişafı, təkamülü prosesində qazanılan nailiyyətlərin təzahür modeli kimi çıxış edir. Bəşəriyyətin müxtəlif formalarda (elm, incəsənət, texnika və s.) təzahür tapan görkəmli nailiyyətləri inkişaf və təkamülün ən vacib məqamlarını özündə təcəssüm etdirməklə ictimai əhəmiyyətə malik olur, cəmiyyət tərəfindən qəbul edilir, nəsildən-nəslə ötürülür. "Tarix abidəsi" fenomenini tədqiq edən V.L.Yeqorov, onu təkcə mühafizə edilən yadigar, xatirə kimi deyil, ictimai məzmunla yüklənmiş sosial kateqoriya kimi təqdim edir.[53] Yaddaş mədəniyyəti nəzəriyyəsinin nümayəndələrinin irəli sürdükləri "sosial yaddaş", "kollektiv yaddaş" konsepsiyalarının ideya məğzini, məhz bu arqument təşkil edir. Çünki elə ki, tarixi-mədəni obyektlər cəmiyyət tərəfindən "abidə" statusunu əldə etməyə başlayır, tarnınmış abidəşünas A.N.Dyaçkovun qeyd etdiyi kimi bunlar cəmiyyətdə: *"rol oynamağa və abidə funksiyalarını yerinə yetirməyə başlayırlar*"[54]. Bu mənada tarix və mədəniyyət abidələrinə, həm də cəmiyyətin həyatında sosial funksiyaları reallaşdıran fəal fenomenlər kimi yanaşan abidəşünaslardan P.V.Boyarski, A.N.Dyaçkov, A.M.Kulemzin, V.B.Bazarjanov, A.D.Aryanov, L.R. Klebanov bu funksiyaların istiqamətlərini: sosial təcrübənin translyasiyası, yaxud tarixi varislik, ideoloji, tərbiyə, maarifləndirici, idraki (qnoseoloji), kommunikativ, utilitar, kompensator, nizamlayıcılıqda görürlər. Problemin bu aspekti ilə bağlı aparılan araşdırmalar tarix və mədəniyyət

---

[52] Памятниковедение: теория, методология, практика:// сб. науч. тр. / ред.-сост. П.В.Боярский –Москва: Научно-исследовательский институт культуры, –1988. –с.36

[53] Егоров, В.Л.. Развитие и становление понятия «памятник истории» // История СССР. – Москва: –1988. № 1. –с. 100 - 106.

[54] Дьячков, А.Н. Памятники в контексте историко-культурной сферы /А.Н. Дьячков. –Москва–1990. –с.13.

abidələrinin ictimai-sosial dəyərinin çoxaspektli səciyyəyə malik olduğunu üzə çıxartdı. Tarix və mədəniyyət abidəsinin ictimai-sosial dəyəri digər dəyər meyarları- tarixi-memorial, bədii-estetik, elmi dəyər sayəsində müəyyən olunur. Məsələn, abidənin tarixi, yaxud bədii dəyəri onun tədris-tərbiyə prosesində istifadəsini mümkün edir. Bu çoxaspektlilik tarix və mədəniyyət abidələrinin ictimai-sosial dəyərinin məzmununun istehlak, utilitar, təsərrüfat dəyər meyarları ilə şərtlənməsini zəruri edir. Abidələrin ictimai-sosial dəyərinin mühüm aspektini istehlak dəyəri təşkil edir. İstehlakın nüvəsinidəki istifadəçilik aspekti nəticəsində obyektin faydalılığı, əhəmiyyətliliyi ortalığa çıxır. Tədqiqatçı Y.Y.Mazurova tarix və mədəniyyət abidələrinin mədəni sərvətlər kimi qorunmasının mümkünlüyünü onların, təkcə üzə çıxarılması, dövlət tərəfindən qeydə alınması, yaxud da bərpası ilə deyil, ən başlıcası, onlardan cəmiyyətin xeyrinə istifadəsində görməklə: "*Abidə istifadə edilmədikdə boş qalır və ümumiyyətlə, "istifadə edilməyən abidə" anlayışını milli nailiyyətlərin mühafizəsi və gələcək nəsillərə ötürülməsi vəzifəsi ilə tutuşdurmaq olarmı*?"sualının cavabını abidələrin cəmiyyətin fəal ünsürünə çevrilməsi ilə izah edir[55]. Xüsusilə, öz ilkin funksional təyinatını itirməyən tarixi vağzallar, su anbarları, kanallar, yollar, körpü kimi daşınmaz abidələrin istehlak dəyəri müasir gündə onlardan təyinatına görə istifadə edilməsidir. Bu məsələ ilə bağlı tədqiqatın nəticələri muzeyləşdirməni, həm də istehlak dəyər göstəricisi kimi təqdim edir. Tədqiqatçılar O.E.Mişakova., K.A.Mixaylova muzeyləşdirmənin ictimai-sosial dəyərində revitalizasiya, revalorizasiyanın əhəmiyyətini qabardırlar[56]. Revitalizasiya, revalorizasiya abidənin təkcə fiziki deyil, onun sosiumun şüurunda dəyərinin yenidən dirçəldilməsidir. Qeyri-maddi obyektlərin də bu prosesə cəlb olunması aktuallıq kəsb edir.

---

[55] Мазурова, Е.Ю. Некоторые аспекты использования наследия / Е.Ю.Мазурова.–В кн: Рекреационная география.(учебно-методический комплекс). /авторы: А.С.Кусков, В.Л.Голубева, Т.Н.Одинцова – Москва: МПСИ Флинта, –2009.–с.107.

[56] Мишакова, О.Е. Из истории развития музееведческих мысли о памятников архитектуры как объектах культурного наследия / О.Е.Мишакова, К.А. Михалева //Austrian Journal Humanities and Social Sciences. –2014. №9-10, –с.27-31.

Muzeyləşdirmə iki variantlı bir modeldir: birinci varianta tarixi memarlıq abidələrinin muzey məqsədləri üçün uyğunlaşdırılaraq istifadəsi, ikinci varianta isə, memarlıq ansambl və kompleksləri, mədəni landşaftlar, şəhər-abidələr, arxeoloji məkanlar, memorial və əlamətdar ərazilərin qoruqlar kimi istifadəsi aiddir. Hər iki variantda abidələrin istehlak dəyəri mühüm rol oynayır. Xüsusilə, mühit muzeyi, muzeal məkan konsepsiyalarından çıxış edən açıq səma altında muzeylərin təkcə maddi deyil, qeyri-maddi irsin (dil, etik normalar, davranış, məişət mədəmiyyəi, şifahi mədəniyyət, musiqi və s.) unudulmuş nümunələrinin də muzeyləşdirilərək revitalizasiya, revalorizasiyası istehlak, utilitar dəyər baxımından müasir günlə çox səsləşir. Azərbaycanda Şəki, Lahıc tarixi sənətkarlıq mərkəzlərinin müəyyən mənada muzeyləşdirilmiş obyektlər kimi tanınması onların utilitar fəallığını heç də azaltmır. Lahıcda dəmirçilik sənətkarlıq emalatxalarının qədim texnoloji ənənə üsulları əsasında fəaliyyəti, hazırlanan müxtəlif növ məişət məhsullarının satışı, analoji ənənənin başqa bir formada – məsələn, Şəkidə ipək kəlağayılar, şirniyyatların hazırlanaraq satışı-revitalizasiyası utilitar dəyərin aktivliyini sübut edir. Tarixi texnologiyaların da tarix və mədəniyyət abidələrinin mühafizəsi problemləri çərçivəsinə daxil olunması, bu kimi ənənələrin (dulusçuluq, misgərlik, toxuculuq, mətbəx mədəniyyəti, hətta idman oyunları və s.) revitalizasiyasının əsas şərtlərindən biri sayılmaqla ictimai-sosial əhəmiyyətini qabardır. Bu xüsusiyyət qeyri-maddi obyektlərin də muzeyləşdirmə prosesində aktivliyində mühüm rol oynayır.

Dissertasiyanın **“Dəyərləndirmə metodu kimi ekspertizanın muzeyşünaslıq aspektləri”** adlanan IV fəslində mədəni irs obyektlərinin tarix və mədəniyyət abidəsi statusuna transformasiyasında ekspertiza dəyərləndirmə metodu kimi tədqiq olunur. “**Tarix və mədəniyyət abidələrinin dəyərləndirilməsində ekspertizanın vəzifələri”** adlanan birinci yarımfəslin araşdırmaları tarix və mədəniyyət abidəsinin dəyərləndirilmə prosesinin: obyektin mədəni irsin dəyəri səviyyəsində ekspertizası və xüsusi əhəmiyyətə malik olan dəyərin “tarix və mədəniyyət abidəsi” statusuna transformasiyası məqsədilə ekspertizasının iki iyerarxik mərhələdən

ibarət olduğunu isbat etdi. Obyektin mədəni sərvət kimi tanınması ilkin olaraq "*müvafiq icra hakimiyyəti orqanı tərəfindən ekspertiza yolu ilə müəyyən olunur*"[57]. Azərbaycanda mədəni dəyərlərin ekspertizası Azərbaycan Milli Xalçası Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, M. F.Axundov adına Milli Kitabxanası, Respublika arxivləri nəzdində fəaliyyət göstərən ekspert komissiyaları tərəfindən həyata keçirilir. Mədəni dəyərin ekspertizanın nəticələrindən sonra xüsusi mühafizəyə ehtiyacı zərurəti sübut olunduqda onun "tarix və mədəniyyət abidəsi" statusu alması reallaşır. Bəşəri əhəmiyyətli tarix və mədəniyyət abidələrin YUNESKO-nun Bəşəri İrs Siyahısına salınması nominasiyaları da beynəlxalq ekspertiza səviyyəsində həyata keçirilir.

Bu yarımfəsildə aparılan araşdırmalar dəyərləndirilmə prosesinin ilkin mərhələsi üçün kulturoloji ekspertizanın məqsədəuyğunluğunu üzə çıxartdı. Tədqiqatçılardan A.P.Sadoxin, A.B Şuxobodski., E.A. Rudakova yeni ekspertiza növü kimi kulturoloji ekspertizanın mədəni dəyərlərin ilkin dəyərləndirmə növü kimi əhəmiyyətinə xüsusi əhəmiyyət verirlər[58]. Müvafiq icra orqanları tərəfindən həyata keçirilən kulturoloji ekspertiza nəticəsində obyektin mədəni irs dəyəri olub-olmaması, onun milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilib-edilməməsi məsələsi, tarixi-mədəni əhəmiyyəti sübuta yetirilir. Mədəniyyətin maddilərlə yanaşı, qeyri-maddi tarixi-mədəni dəyərlərin bütün növlərini əhatə etmə xassəsi elmi dövriyyəyə yeni daxil edilmiş kulturoloji ekspertizanın ilkin

---

[57] Azərbaycan Respublkasının "Mədəniyyət haqqında" Qanunu.21 dekabr, 2012.Bakı: –VII fəsil, maddə 30.5.http://e-qanun. az/framework/ 25303

[58] Садохин, А.П.. Теоретико-методологичские ресурсы культурологичской экспертизы. Культурологический журнал, Электронное периодическое рецензируемое научное журнал. 2012. № 3 (9)., Шухободский, А Б. Особенности государственной историко-культурной экспертизы и е роль в формировании феномена «памятник истории и культуры» /А Б.Шухободский.// Вестник Ленинградского государственного университета им.А.С.Пушкина. –2011. Вып. №4, т.2,–с.237. –246., Рудакова, Е.А. Что называют сегодня культурологической экспертизой? /Е.А. Рудакова, Л.В. Никифирова //Философия и культурология в современной экспертной деятельности (коллективная монография.) –СПб. Изд-во РГПУ им.А.И.Герцена. –2011.– 345 с.

dəyərləndirmə metodu kimi əliverişli olduğunu sübut edir. Obyektin kulturoloji ekspertiza nəticəsində mədəni irs faktı kimi təsdiqlənməsi, Dövlət Siyahısına daxil edilməsi- bu ekspetiza növünün muzeyşünaslıq aspektlərini qabardır. Xüsusi mühafizəyə ehtiyacı olan dəyərlərin Dövlət Reyestrinə daxil edilməsi məqsədilə digər ekspertiza növləri tətbiq olunmaqla həyata keçirilir. Dəqiq təyinat üzrə aparılan ekspertiza (sənətşünaslıq, texnoloji, kompleks) tarixi və mədəni sərvətlərin dəyərləndirilərək abidə statusuna transformasiyasında xalis peşəkar funksiya daşıyır.

Atribusiya–ekspertizanın ilkin mərhələsidir. Muzeyşünaslıqda atribusiyaya obyektin: morfologiya, texnologiya, material, funksiyası, qeyri-maddilərin əsas xassələrinin öyrənilməsinə sistemli yanaşması aid edilir. Vizual əlamətlər – material, onun hazırlanma üsulu, ölçüsü, forma və quruluşu obyektin tarixi, bədii-estetik, elmi, memorial, ictimai-sosial dəyər aspektləri ilə yanaşı, onların əslilik, orijinallıq, unikallıq kimi dəyər səviyyələrinin öyrənilməsində də əhəmiyyətli hesab edilir. Məhz bu xüsusiyyətinə görə, muzeyşünaslıqda atribusiyaya xüsusi elmi fəaliyyət növü kimi yanaşılır. Muzeal dəyərin üzə çıxarılmasında atribusiya təhlillərinin əhəmiyyəti ölçüyəgəlməzdir. Əldə olunan nəticələrin təhlilləri muzeyşünaslıqda yeni formalaşmış muzey interpretasiyasının istiqamətlərindən biridir. Atribusiya və ekspertizanın muzeydaxili (fond-satınalma komissiyası, ekspert komissiyası), yaxud da muzeydənkənar məkanlarda (məhkəmə ekspertizası, gömrük ekspertizası və s.) təşkilindən asılı olmayaraq bu mədəni hadisənin muzeyşünaslıq aspektləri mədəni irs obyekti və bu obyektin xüsusi rejim əsasında mühafizəyə cəlb olunmasını zəruri edən dəyər potensialının üzə çıxarılmasıdır. C.Morelli, B.Berenson, M.Fridlender, İ.İ.Vinkelman, V.R.Vipper, bərpaçı O.V.Yaxont kimi görkəmli sənət biliciləri obyektlərin mədəni dəyərinin, əsilliyi, unikallığı, orijinallığının müəyyənləşdirilməsində ekpertiza və atribusiyanın nəticələrindən məqsədəuyğun şəkildə istifadə etmiş, özlərinin tətbiq etdiyi üsul və metodlarla müasir atribusiya sənətinin elmi əsaslarını yaratmışlar. Muzey ekspertizası, sənətşünaslıq ekspertizası bu elmi əsaslara istinad edir. Məsələn, rəngkarlıq əsərinin atribusiyasında C.Morellinin tətbiq etdiyi "tibbi" metod

onun saxta, nüsxə olub-olmamasının müəyyənləşdrilməsinin ən səmərəli üsullarındandır. Bu yarımfəsildə mühafizədən təcrid olunma, tarix və mədəniyyət abidəsi statusundan kənarlaşdırılma hallarına görə də ekspertizanın rolu üzə çıxarılır.

**"Tarix və mədəniyyət abidələrinin qiymətləndirilməsinin muzeyşünaslıq aspektləri"** adlanan ikinci yarımfəsildə abidələrin pulla qiymətləndirilməsi tədqiq olunur. Aşağıdakı hallarda tarix və mədəniyyət abidələrinə ekspert-qiymətləndiricilər tərəfindən qiymət qoyuluşu həyata keçirilir:

- daşınmaz tarix və mədəniyyət abidələri kateqoriyasından olan memarlıq, şəhərsalma, təbiət obyektlərinin sığortalanması, icarəyə verilməsi, investisiya qoyuluşu, bərpası, təmiri və digər profilaktik tədbirlərin həyata keçirilməsi, vergiqoyuluşu, kommersiya dövriyyəsinə cəlb olunması zamanı;
- daşınar tarix və mədəniyyət abidələrinin müxtəlif məqsədlər əsasında bir yerdən başqa yerə köçürülməsi bağlı sığortalanması, ekspozisiya və sərgilərdə nümayişi ilə əlaqədar icarə müqaviləsinin təsdiqlənməsi;
- hərbi müdaxilə və müharibələr zamanı tarix və mədəniyyət abidələrinə dəymiş ziyanın öyrənilməsi, təzminatın ödənilməsi zamanı;
- musiqi, kino, teatr və digər qeyri-maddi abidələrin müəlliflik hüquqlarının pozulması, onların bərpası zamanı.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 avqust 1999-cı il "Azərbaycan Respublikasında mədəni dəyərlərin Milli mədəni Əmlak Dövlət Siyahısına və mədəni dəyərlərin Mühafizə Siyahısına qeydiyyatı Qaydaları" haqqında 130 saylı qərarında mülkiyyət formasından asılı olmayaraq bütün dəyərlərin ekspertiza yolu ilə qiymətləndirilməsi qanuni hal kimi səciyyələndirilir. Bu işi hüquqi şəxslər (müvafiq icra orqanları, Mədəniyyət Nazirliyi, muzeydə fəaliyyət göstərən peşəkar ekspert-qiymətqoyma təşkilatları, institutları) həyata keçirir. Bu tərkibə diqqət yetirdikdə tarix və mədəniyyət abidələrinin ictimai-sosial dəyər probleminin araşdırılmasına həsr etdiyimiz əvvəlki yarımfəsildəki iqtisadi dəyər, istehlak dəyəri, utilitar- təsərrüfat dəyərin qiymətləndirmə aktı üçün baza rolu oynadığını müşahidə etmək olar. İqtisadi bir proses kimi

tarix və mədəniyyət abidələri bazar, xüsusi, investisiya, yenidənyaradılma, ləğvetmə kimi qiymətləndirmə növləri ilə həyata keçirilir. Bütün bu faktlar abidələrin dəyərləndirilməsinin ikinci forması olan qiymətləndirmənin mütləqliyi amilini və bu prosesin muzeyşünaslıq kontekstlərini qabardır. Hazırkı problemin muzeyşünaslığın tədqiqat predmetinə çevrilməsi onun həllinin iqtisadi, maliyyə əməliyyatları ilə birgə mümkün olduğunu sübut edir. Tarix və mədəniyyət abidəsinin qiyməti onun özündə cəm etdiyi dəyər aspektlərinə görə müəyyənləşir. Ona görə də "tarix və mədəniyyət abidəsinin dəyərinin qiymətləndirilməsi" ifadəsi, həm iqtisadiyyat, həm də muzeyşünaslıq kontekstindən məntiqli sayılır. Tarix və mədəniyyət abidələrinin dəyər potensialının qiymətləndirlmə mexanizmi ilə bağlı araşdırılan metodikaların (memarlıq abidələri üzrə A.İ.Qlaqolev, Y.N.Çernyavskaya[59], tarix, şəhərsalma abidələri üzrə M.T.Qilkman, Y.İ.Markus, V.S.Başkatov[60], müxtəlif kateqoriyadan olan abidələr üzrə kanadalı Tamoykinlərin TES metod- standartları[61], qeyri-maddi dəyərlər üzrə S.V.Valdaysev, A.N.Kozırovun mədaxil, məxaric, kombinələşdirilmiş

---

[59] Глаголева, А.И. Экономический ценность памятников. В кн: Памятниковедение: теория, методология, практика: сб.науч.тр.Научно-исследовательский институт культуры. –Москва:– 1986.–с.76--98.

Чернявская, Е.Н.. Ценность и оценка памятников архитектуры. В кн:Памятники в контексте историко-культурной среды.–Москва: –1990. – с.41-59.

[60] Гликман, М.Т., Маркус, Я.И. Концепция и ключевые аспекты памятников истории, архитектуры и градостроительсва (опыт Одесского региона) версия с сайта: http://www.uto.com.ua/glikman.doc

Башкатов, В.С.. Морфологический анализ в оценке памятников культурного наследия // Имущественные отношения в Россмйской Федерации, – 2009.№11(98) с.30-38, №12 (99). с.29-33..

Башкатов, В.С. Основы оценки стоимости недвижимости : учебно-методическое пособие. / В.С.Башкатов. Санкт-Петербург: Изд-во Санкт-Петербургского государственного университета. –2005.–170 с.

[61] Тамойкин, М.Ю., Тамойкин, И.Ю., Тамойкин, Д.М. Оценка культурных ценностей международный стандарт ТЭС-оценки предметов культурной ценности, антиквариата и коллекционирования по затратному подходу. Версия 2012 г.[Электронный документ] –
http://www.tamoikin.com/uploads/4/3/0/8/4308917/x-ias-2012- rus.pdf

yanaşmaları[62]) ümumi cəhəti obyektlərə qiymət qoyuluşunda əsas meyar kimi obyektin dəyər potensialının üstünlük təşkil etməsidir. Dəyər göstəricisi nə qədər yüksək olarsa, obyektin qiymətləndirmə əmsalı bir o qədər yüksək olar. Tarix və mədəniyyət abidəsinin dəyər potensialı-tarixi, bədii-estetik, ictimai-sosial (iqtisadi, istehlak, elmi, memorial) dəyəri və eyni zamanda bunların fonunda unikallıq, orijinallıq, əslilik kimi dəyər səviyyələri qiymətləndirmə obyekti kimi dərk olunmalıdır. Tədqiqat prosesində Azərbaycanda bu istiqamətdə rəsmi qanunvericilik sənədinə rast gəlinməsə də, lakin Qarabağın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə dəyən ziyanın qiymətləndirilməsi tələbinin Azərbaycanın İşğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov tərəfindən qabardılması, bu istiqamətdə elmi-praktiki cəhdləri diqqətəlayiqdir[63]. Tarix və mədəniyyət abidələrinin dəyərinin obyektiv qiymətləndirilməməsi nəticə etibarılə onların mühafizəsinin düzgün təşkil olunmaması ilə müºayiət olunur. Belə ki, mühafizə mexanizminin səviyyəsi birbaºa tarix və mədəniyyət abidəsinin dəyər, qiymət səviyyəsi ilə düz mütənasibdir! Qiymətinə görə daha dəyərli olan abidələr üçün xüsusi mühafizə rejimi tələb olunur. Ona görə də tarix və mədəniyyət abidələrinin mühafizəsi, hətta bərpası ilə məşğul olan peşəkar mütəxəssisdən tutmuş, adi texniki işçiyə qədər hər kəs bunların qiyməti haqqında informasiyaya malik olmalıdır.

Dissertasiyanın **Nəticə hissəsində** aşağıdakı təkliflər irəli sürülmüşdür:

- Terminoloji dolaşıqlığın aradan qaldırılması məqsədilə həm beynəlxalq, həm də ölkə səviyyəli strateji sənədlədə "mədəni dəyər", "mədəni irs", "tarix və mədəniyyət abidəsi" anlayışlarının hər birini öz təyinatına görə düzgün tətbiqinə nail olmaq; "Mədəni irs"

---

[62]. Валдайцев, С.В.Оценка интеллектуальной собственности / С.В.Валдайцев. Москва: Экономика, / –2009.–472 с., Козыров, А.Н. Оценка интеллектуальной собственности / А.Н.Козыров – Москва: Экспертное бюро, –2006.–280 с.

[63]İsmayılov, F.İ.Azərbaycanın işğal olunmuş ərazisindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi metodologiyası. / F.İ.İsmayılov. – Bakı: –Yazıçı, – 2014. –120 s.

küllüyyatı bildirdiyi halda, “tarix və mədəniyyət abidəsi” mühafizə vahidini bildirir.

- Hazırkı tədqiqatda tarix və mədəniyyət abidəsinin təklif olunan yeni tərifinin məzmunundan irəli gələrək qeyri-maddi irs obyektlərinin də həmin statusda tanınması elmi cəhətdən məqsədəuyğun hesab etmək;
- Xüsusilə, respublikada muzeyşünaslığın tədrisi ilə bağlı hazırlanan dərslik, dərs vəsaiti, metodiki tövsiyyələrdə “muzeal məkan” konsepsiyasından çıxış edərək “muzeal” anlayışının izah və tətbiqinə geniş vermək, bu muzey əhəmiyyətli obyektlərin təkcə muzeylərdə deyil, muzeydənkənar yerlərdə də mövcudluğu, tarix və mədəniyyət abidəsinin yeni modeli haqqında aydın təsəvvür yaradar;
- Müxtəlif növ və tipdən olan dəyərlərin ayrı-ayrılıqda muzeal strukturunun (muzeal dəyəri, muzeal təzahürü, muzeal səviyyəsi) araşdırılaraq tədqiqata cəlb olunması aktuallıq kəsb edir;
- Azərbaycanlı tədqiqatçıların milli mədəni irsin ayrı-ayrı növlərinin muzeyşünaslıq kontekstində araşdırılmasına marağını gücləndirimək;
- Abidəşünaslıq biliklərinin təbliği və tətbiqi məqsədilə Respublika Milli Elmlər Akademiyasının nəzdində Abidəşünaslq mərkəzinin yaradılmasına nail olmaq;
- Tarix və mədəniyyət abidələrinin mühafizəsi üzrə Milli cəmiyyətin təsisinə nail olmaq;
- Tarix və mədəniyyət abidəsinin xüsusi mühafizə rejiminə cəlb olunan fenomen olduğunu nəzərə alaraq Azərbaycan Respublikasının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Qanunun adındakı, eləcə də 3, 5, 9, 12, 13, 18, 28, 30, 32-ci maddələrdə “qorunma” sözününün “mühafizəsi” ilə əvəzlənməsi;
- Hüquqşünas-tədqiqatçıların diqqətini Azərbaycanın tarix və mədəniyyət abidələrinin mühafizəsinin hüquqi aspektlərinin araşdırılmasına yönəltmək;
- “Abidə” fenomeninin əlahidəlliyindən irəli gələrək muzey qanunvericiliyində “muzey abidəsi”nin xüsusi mühafizə kateqoriyası kimi tətbiqinə nail olmaq;

- Muzeyşünas tədqiqatçıların incəsənətin müxtəlif növləri üzrə tarix və mədəniyyət abidələrinin təsnifatlarının tərtibinə və hər bir növün muzeyşünaslıq kontekstindən tədqiqatına nail olmaq;

- Azərbaycanlı tədqiqatçıların tarix və mədəniyyət abidələrinin qiymətləndirilməsi probleminin araşdırılmasına və bu prosesdə muzeyşünaslıq aspektlərin qabardılmasına nail olmaq;

- Tarix və mədəniyyət abidələrinin müəyyənləşdirilməsində yaş xronologiyasını 50 il götürülməsini nəzərə almaq;

- Sənətşünas, muzeyşünas tədqiqatçıların abidələrin əsliliyi, unikallığı, orijinallığı aspektləri problemlərinin tədqiqinə cəlb etmək;

- Tarix və mədəniyyət abidələrinin ekspertizası ilə məşğul olan xüsusi dövlət orqanının, özəl qurumların, yaxud da məhkəmə, gömrük ekspertizası orqanları tərkibində kulturoloji ekspertiza (tarixi-mədəni ekspertiza) strukturu yaratmaq.

## Dissertasiya ilə bağlı çap edilmiş elmi məqalələr


1. Muzey və ekspozisiya. Muzeyşünaslıq. Dərslik, XI fəsil, Mars-Print. Bakı, 2002. səh. 267-271.
2. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Muzeyşünaslıq. Dərslik, XIV fəsil, Mars-Print. Bakı, 2002. səh. 361-377.
3. Azərbaycanda tarix və mədəniyyət abidələri, onların mühafizəsi. Metodiki vəsait. Mars-Print, Bakı. 2002. 110 səh.
4. Mədəniyyətin inteqrasiyasında muzeylərin rolu. ADMİU Elmi məqalələr toplusu Bakı. 2004. V burax. səh. 64-66.
5. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Fənn proqramı. 2005. səh.197-216.
6. Tarixi-mədəni irsin öyrənilməsində abidəşünaslığın elmi fənn kimi formalaşma zərurəti. ŞÖBMA, Bakı. 2008. № 2. səh.188-192
7. Muzey ekspozisiyası. Dərs vəsaiti. Mars-Print, Bakı. 2009. 228 səh.

8. Abidələr-informasiya mənbəyi kimi. ŞÖBMA, Bakı. 2009. № 3. səh. 176-181.

9. Abidələr- mədəni irsin əsas komponenti kimi. “Muzeylər və mədəni irs” Milli Azərbaycan Tarixi Muzeyinin 90 illiyinə həsr olunmuş beynəlxalq konfransın materialları, Bakı. 2010. səh. 212-215.

10. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Dərs vəsaiti. Mars-Print, Bakı. 2010. 344 s.

11. Abidələrin ictimai dəyər aspektləri. “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri” elmi əsərlər məcmuəsi, Bakı. 2011. .№2(8). səh.49-51.

12. Dəyərlər. Sosial kulturologiya. Dərslik, Sabah, Bakı. IV fəsil, § 4.1. 2011. səh.73-83

13. Tarix və mədəniyyət abidələrinin mühafizəsinin aktual problemləri. Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), Bakı. 2011. XXII burax. səh.44-48.

14. Açıq səma altında muzeylər- abidələrin muzeyləşdirilməsinin mühüm amili kimi. “Mədəni həyat”jurnalı, Bakı. 2012. № 12. səh.80-84.

15. Qarabağın mədəniyyət abidələri. ŞÖBMA, Bakı. 2012. №1 (2). səh.123-129.

16. Памятниковедение как социально-гуманитарная дисциплина. МатериалыIIМеждународной научно-практической конференций,Изд-во ЛГИКИ, Луганск. 2012. стр.143-145.

17. Memarlıq abidələrinin muzey dəyəri. ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, Bakı. 2012. səh.108-110.

18. Tarix və mədəniyyət abidələri informasiya mənbəyi kimi. Müasir mədəniyyətşünaslıq (elmi, metodiki, publisistik jurnal), Bakı. 2012. №1(9). səh.60-65.

19. Mədəni irs və cəmiyyət. “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri” elmi əsərlər məcmuəsi, Bakı. 2012. № 1 (9). səh.119-124.

20. Tarixi memarlıq abidələrinin muzey təyinatı üzrə uyğunlaşdırılması. ŞÖBMA, Bakı. 2012. № 2 (3). səh.89-94.

21. Tarix və mədəniyyət abidəsi” anlayışı: şərhə müasir yanaşmalar. Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), Bakı. 2012. XXIV burax. səh.31-35.

22. Abidə- yaddaş kimi. Müasir mədəniyyətşünaslıq (elmi, metodiki, publisistik jurna), Bakı. 2013. № 1 (13). səh.114-118.

23. “Mədəniyyət abidəsi” fenomeninin kulturoloji kontekstləri. Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), Bakı. 2013. XXV burax. səh.60-64.

24. İncəsənət abidələrinin bədii-estetik dəyərinin muzeyşünaslıq kontekstində təhlili. Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), Bakı. 2013. XXVI burax. səh.65-70.

25. Mədəni irs- muzeal fenomen kimi. VIII Uluslararasi türk kültürü, sanati ve kültürel mirasi koruma sempozyumu/sanat etkinleri, Konya. 15-17 mayıs 2014. səh. 321-325

26. Tac Mahal memarlıq abidəsinin muzeal dəyəri. III Uluslararasi türk sanatlari, tarihi ve folkloru konqresi/sanat etkinlikleri, Dehli. 20-26 sent. 2014. sah.443-447.

27. “Şaheser” fenomenine anıt statüsü acısından yaklaşım. Atatürk Universitesi Güzel Sanatlar Entitüsü Dergisi. Erzurum. 2014. Sayı 32.sayfa 93-98.

28. Yaddaş mədəniyyəti nəzəriyyəsində abidələrin yeri. ŞÖMBA, Bakı. 2014. № 1 (7). səh.80-84.

29. Ekspertiza-tarix və mədəniyyət abidələrinin dəyərləndirmə metodu kimi. “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri”, Bakı. 2014. №1(13). səh.70-78.

30. Muzeal fenomen olarak folklor. TEKEDERGİSİ (Uluslararası Türkçe Edebiyyat Kültür Egitim Dergisi), Erzurum. 2015. № 4 (3). sayfa 733-737.

31. Основные признаки трансформации объектов архитектуры Азербайджана в статус памятников истории и культуры. Kazakstanмурагаттары. (информационный и научно-практический журнал, Астана. 2015. №1(33). стр. 89-95

32. Смысловая сущность термина «абиде» как особенность, трансформирующася в понятие «памятник». «МИРАС» (Общественнополитический и научно-популярный

журнал Музея первого Президента Республики Казахстана), Астана. 2015. №2(34). стр.75-77.

33. Digitalization as a modern form of cultural heritage. 3rd İnternational Conference “Ohrid-Vadici, 2015” on topic “ Rethinkingfhe Framework of Interdisciplinary cooperstion between Cultural Heritage? Local Economic Development, Tourism and Media”, Ohrid, Republic of Macedonia. 2015. 17-19 Yanuary. səh.43-46.

34. Folklorun korunmasının muzeyşünaslıq yönleri. IX international turkic culture, art and protection of cultural heritage symposium\art activity, Verona-Italy. 2015. 07-11 september. səh. 569-577.

35. Heykəllər söz açır... Qobustan (sənət toplusu), Bakı. 2015. № 3. səh.64-67.

36. Tarix və mədəniyyət abidələrinin təsnifatı muzeyşünaslıq problemi kimi. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Əsərləri, Bakı. 2016. № 1. səh.37-45.

37. Türksoylu xalqların musiqi abidələrinin tədqiqində muzeylərin rolu. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı. 2016. səh.319- 324.

38. Musiqi irsi-tarix və mədəniyyət abidəsi statusunda. Musiqi dünyası, Bakı. 2016. №3/68. səh.69-72.

39. Tarix və mədəniyyət abidələrinin muzeal dəyəri. Turizm və qonaqpərvərlik. Bakı. 2016. il 5, say 4. səh.146-151.

40. Tarix və mədəniyyət abidələrinin mühafizəsi. Fənn proqramı. Muzeyşünaslıq, arxiv işi, tarix və mədəniyyət abidələrinin mühafizəsi ixtisasının bakalavr pilləsi üçün tədris proqramı, ADMIU-nun mətbəəsi, Bakı. 2017. 35 səh.

41. Abidəşünaslıq. Monoqrafiya. ADMİU-nun nəşriyyatı, Bakı. 2017. 250 səh.

42. “Tarix abidəsi” fenomeninin muzeyşünaslıq aspektləri. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, Naxçıvan. 2017. № 2 (83).

43. “Tarih ve kültür abidesi” fenomenine muzeal yaklaşım. Monoqrafik broşura. Türkce özel seri. Lambert Academic Publishing. 2017. 54 sayfa.

44. Культурологическая экспертиза памятников истории и культуры. Збірник Наукові записки Тернопільського національного педагогічного університету імені Володимира Гнатюка. Серія: Мистецтвознавство., Тернопіль. 2017. № 2 (вип. 37). стр. 242-248.

45. Abidəşünaslıq. Fənn proqramı. Magistr səviyyəsi üçün Bakı, ADMİU-nun mətbəəsi, 2018. 15 səh.

46. Muzey ekspozisiyası. Dərslik. ADMİU-nun nəşriyyatı, Bakı. 2018. 370 səh.

47. Dəyərləndirmə- “tarix və mədəniyyət abidəsi” statusunu müəyyənləşdirən akt kimi. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” jurnalı (sənətşünaslıq üzrə), “Tusi” nəşriyyatı, Naxçıvan. 2018. Cild 8, № 1. səh.145-151.

48. “Arxeoloji abidə” anlayışının interpretasiyası. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun “Azərbaycan arxeologiyası və etnoqrafiyası “ jurnalı, Bakı. 2018. № 1. səh.82-90.

49. Kültürel mirasın müzeler aracılığıyla hayata geçirilmesi. Yegah Musiki Dergisi,Türkiyə. 2018.cilt 1, sayı-1, sayfa 79-92.

50. Muzeyşünaslığın tədrisinin inkişaf xronologiyası. “Muzeyşünaslığın tədrisi problemləri” II Respublika elmi konfransın materialları, ADMİU-nun nəşriyyatı, Bakı. 2018. səh.41-47.

51. Muzeyşünaslığın tədrisində Böyük Britaniyanın Lester məktəbi tədqiqatlarının rolu. “Muzeyşünaslığın tədrisi problemləri” III Respublika elmi konfransın materialları, ADMİU-nun nəşriyyatı, Bakı. 2019. səh. 55-60.

52. The historical and cultural monument: a modern interpretation of the term. Al-Farabi Kazakh National University. Философия, медениеттану, саясаттанусериясы. 2019. № 3(69). səh.80-86.

53. Historical and cultural monument as a cateqory of cultural heritage. УКРАЇНСЬКА КУЛЬТУРА:МИНУЛЕ, СУЧАСНЕ, ШЛЯХИ РОЗВИТКУ. Науковий збірник, Рівне:РДГУ. 2019. Випуск 31. səh. 49-55.

54. Museological aspects of the artistic and aesthetic value of history and culrute. Innovationand Entrepreneurship: Collection of scientific articles. - Ajax Publishing, Montreal, Canada. 2020. p.171-174.

55. Qeyri-maddi irs obyekti-tarix və mədəniyyət abidəsi statusunda. "Mədəniyyət dünyası" jurnalı, ADMİU, Bakı. 2021. XXXIX burax. səh.27-33.

56. Философский анализ концепции «памятника». «Вопросы истории», Москва. 2021. № 5(2). стр. 184-191.

57. Tarix və mədəniyyət abidələrinin mühafizəsi. Dərslik. "Adiloğlu" nəşriyyatı, Bakı. 2021. 610 səh.

58. Музеологические контексты феномена «памятник истории и культуры». Вестник Кемеровского государственного университета культуры и искусств, КемГИК, Кемерова. 2021. № 57. стр. 57-66.

59. Nizami Gəncəvi irsi abidə statusunda. N.Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı. 2021. 25-27 noy.

60. "Museum monument":a modern interpretation of the consept. Ad Alta-journal of interdisciplinary research, 2022. №12 (1). pp.303-306.

61. Şuşa "şəhər-abidə" statusunda. V Beynəlxalq Həmzə Nigari simpoziumunun materialları, im.print, Bakı. 2022. Quzanlı/Agdam.17-19 may. səh.398-406.

62. Анализ музееведческого контекста статуса «город-памятник» на примере городе Шуша. K.Behzad adına Özbəkistan Bədii sənət və Dizayn İnstitutunun jurnalı. 2023. 2(4) s. 39-52.

63. İşğaldan azad olunmuş Qarabağda muzey işinin bərpası. "Azərbaycan sənətşünaslığı Şərq-Qərb dialoqu kontekstində" mövzusunda Beynəlxalq Elmi-praktiki konfransın materialaları. Bakı, 2023, 17 noyabr. səh.117-119.

64. Музологические аспекты оценивания памятников истории и культуры: музеализация. Вестник Томского государственного университета. Культурология и искусствоведение, Томск, 2024. №54, səh. 269-280.

65. Эстетика-как методологическая основа современных экспозиционных консепции музеев. Материалы X Ташкентского интернационального биеналле: «Национальность и универсальность в современном искусстве:личность онимания и интерпретации» Ташкент, 2024. səh.149-153.

Dissertasiyanın müdafiəsi 27 may 2025-ci il tarixində saat 11⁰⁰ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.35/1 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1065, Bakı şəhəri, Yasamal r-nu, İnşaatçılar prospekti, 39.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  18.04.2025
Kağızın formatı: A5
Həcm:  92454
Tiraj:  100